Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

# TƏHLİL

**"Regionlarda insan alveri problemlərinin sosial psixoloji aspektlərinin öyrənilməsi, səbəblərinin müəyyənləşdirilməsi və aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanması"**

**Bakı - 2021**

# T Ə H L İ L

**“Regionlarda insan alveri problemlərinin sosial psixoloji aspektlərinin öyrənilməsi, səbəblərinin müəyyənləşdirilməsi və aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanması”**

---


**Redaksiya Şurası:**

Sədaqət Qəhrəmanova,
Aynur Sofiyeva,
Ceyran Rəhmətullayeva

**Redaksiya heyəti:**

Elgün Səfərov,
Aidə Seyidli,
Fərid Ədilov,
Elşad Kərimov,
Günel Məhərrəmzadə,
Rahil Süleymanzadə

**İş icraçısı:**

**Ramil İskəndərli**
*“Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyinin sədri*

# Mündəricat


Giriş ... 3

Ümumi məlumat ... 4

Tədqiqatın metodologiyası ... 5

Dərlinləşdirilmiş intervyuların (müsahibələrın) nəticələrinin təhlili ... 7

Məcburi əmək və cinsi istismar ... 8

Sosial müdaifə sistemi ... 9

Ailə institutunun rolu ... 11

Valideyn himayəsindən məhrum olunmuş uşaqlar ... 17

COVİD19 Pandemiyasının problemə təsiri ... 19

Sorğu nəticələrinin statistik təhlili üzrə məlumat bazası ... 20

Nəticə ... 28

Təkliflər ... 43

Əlavə 1 ... 50

Əlavə 2 ... 53

Əlavə 3 ... 57

Əlavə 4 ... 59

Əlavə 5 ... 64

# Giriş

22 iyul 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020─2024-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Bu sərəncam insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət qurumlarının qarşılıqlı fəaliyyətində səmərəliliyin artırılması və Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinin icrasının təmin edilməsi məqsədi daşıyır.

2021-ci ilin aprel ayından etibarən "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyi Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycanda insan alveri probleminin səbəblərinin öyrənilməsi məqsədilə təhlilin həyata keçirilməsinə başlamışdır.

Sözügedən Milli Fəaliyyət Planının çoxsaylı məqsədlərindən biri də insan alverinin səbəblərinin, insan alverinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılmasıdır. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.2-ci bəndində isə Regionlarda insan alveri probleminin sosial-psixoloji aspektlərinin öyrənilməsi, səbəblərinin müəyyənləşdirilməsi və aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanması nəzərdə tutulmuşdur. Bu layihənin icrası məhz həmin bəndin həyata keçirilməsinə töhvə verməkdən ibarətdir.

Cari ilin aprel ayından sentyabr ayının sonunadək, 6 ay müddətində həyata keçirilmiş layihədə sorğuların keçirilməsi, dərinləşdirilmiş intervyuların aparılması, statistik məlumatlar bazasının formalaşdırılması, əldə olunmuş məlumatların işlənilməsi və nəticələrin təhlili, təhlil hesabatının və təkliflərin hazırlanması kimi konkret fəaliyyətlər həyata keçirilmişdir.

Tədqiqatın aparılması zamanı insan alveri ilə bağlı keçirilmiş maarifləndirmə tədbirlərinin nəticələrinin qiymətləndirilməsi məqsədi ilə fikirlərin öyrənilməsi istiqamətində də fəaliyyət həyata keçirilmişdir. Bu məqsədlə həm dərinləşdirilmiş intervyular, həmçinin sorğular zamanı bu istiqamətdə intervyu olunanlar və sorğu respondentlərinə suallar verilmiş və fikirləri öyrənilmişdir.

# Ümumi məlumat

BMT-nin İnsan alveri ilə bağlı ümumdünya hesabatına əsasən, qlobal miqyasda müəyyən edilmiş qurbanların 50 faizi cinsi istismara, 38 faizi məcburi əməyə məruz qalmış, 6 faizi cinayətkar fəaliyyətə cəlb olunmuş, qalanı dilənçilik, məcburi nikah, insan orqanlarının alqı-satqısı və digər məqsədlər üçün istismar edilmişdir. Mütəxəssislər dünya üzrə 550-yə yaxın insan alveri marşrutunun fəaliyyət göstərdiyini və bu növ hüquqazidd əməllərdən əldə edilən illik gəlirin təxminən 150 milyard ABŞ dolları olduğunu vurğulayırlar.

Ötən ilin ən mühüm hadisələrindən biri Azərbaycan Respublikası Prezidentinin 22 iyul tarixli Sərəncamı ilə insan alverinə qarşı mübarizəyə dair sayca dördüncü Milli Fəaliyyət Planının təsdiqlənməsi olmuşdur.  22 iyul 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.
Bu konseptual sənədlə 2020-ci il üçün qarşıya qoyulmuş vəzifələr, o cümlədən normativ hüquqi bazanın, institusional mexanizmlərin, cinayət təqibi üzrə fəaliyyətin təkmilləşdirilməsi, qurbanların müdafiəsinin gücləndirilməsi, vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın inkişaf etdirilməsi, insan alverinə qarşı mübarizə üzrə resursların əlaqələndirilməsi və başqa tədbirlərin icrası təmin edilmişdir[1].

Bu sərəncam insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət qurumlarının qarşılıqlı fəaliyyətində səmərəliliyin artırılması və Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinin icrasının təmin edilməsi məqsədi daşıyır.

Ümumiyyətlə, insan alveri təklif və tələb prinsiplərinə əsaslanan və mənbə və təyinat ölkələrində bir sıra "vadaredici və cəlbedici" faktorlardan istifadə olunan yüksək gəlir gətirən bir cinayətdir. Mənbə dövlətlərdə qurbanların davamlı şəkildə təklif edilməsi və təyinat ölkələrində qurbanların xidmətlərinə olan daimi və artan tələb mövcuddur. Mütəşəkkil cinayətkarlar bu iki faktordan istifadə edirlər. Qurbanların təklif edilməsi iqtisadi imkanlar, münaqişə, zorakılıq (o cümlədən məişət zorakılığı), gender, mədəniyyət, yaş və digər amillərin ola biləcəyi qlobal köklü faktorların nəticəsidir. Köklü səbəblər dəyişir və çox vaxt bir dövlətdə digərindən fərqli olur, faktorların çoxu ayrı-ayrı insan alveri nümunələri və onların baş verdiyi dövlətlər üçün səciyyəvi olur.

[1] İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik hesabatı (19.05.2021)
https://www.insanalveri.gov.az/upload/Hesabat_04.21_MK-converted.pdf

# Tədqiqatın metodologiyası

Sorğu anketləri insan alveri qurbanları və ya riskli qrupların sosial-demoqrafik xüsusiyyətləri, onların əhatə edən sosial çevrə ilə münasibətləri, insan alveri qurbanına çevrilmə mərhələsi və insan alverinə qarşı mübarizəni necə dərk etmələri kimi sahələri əhatə etmişdir.

Dərinləşdirilmiş müsahibələr isə bu sahədə çalışan dövlət orqanlarının milli və yerli nümayəndələri, o cümlədən hüquq mühafizə orqanlarının əməkdaşları, müstəqil ekspertlər və müvafiq sahədə işləyən vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri arasında aparılmışdır. Dərinləşdirilmiş müsahibədə eyni zamanda insan alverini yaradan səbəblər, onunla mübarizədə maarifləndirmə tədbirlərinin effektivliyi, hansı dəyişikliklərin edilə biləcəyi kimi məsələlər əhatə edilişdir.
Dərinləşdirilmiş intervyulara cavabların təhlili aparılarkən, müqayisə üçün və ümumi mənzərəni tam vermək üçün rəsmi rəqəmlərdən də istifadə olunmuşdur. Burada əsasən DİN İnsan Alveri İdarəsinin Milli Məclisə göndərdiyi son hesabata istinad edilmişdir.

Qurbanlar arasında keçirilən anket sorğusundakı sual bloku əsasən 4 hissədən ibarət olmuşdur. Birinci bölmə qurbanın sosial-demoqrafik statusunu, ikinci bölmə insan alveri qurbanlarının sosial çevrəsi ilə münasibətlərini, üçüncü bölmə insan alveri qurbanının qurban olmasının səbəb və motivləri, dördüncü bölmə isə insan alveri qurbanına çevrilmə səbəbləri və onlara qarşı mübarizədə qurbanın qavraması və təfəkkürü ilə bağlı sualları əhatə edir.
Suallar, bir neçə açıq sual istisna edilməklə əsasən qapalı suallar olmuşdur. Açıq suallarda cavablar sualın mövzusuna uyğun olaraq tədqiqatçı tərəfindən ümumiləşdirilərək təsnifatlaşdırılmışdır.
Tədqiqat çərçivəsində 50 nəfər ekspertdən də insan alveri fenomeninin baş vermə səbəbləri, risk qrupları və bunlarla mübarizədə dövlət və vətəndaş cəmiyyəti təşkilatlarının rolu, ailə institutunun rolu və preventiv tədbirlərin seçilməsi, mövcud qanunvericiliyin inkişafı sahəsində təkliflər kimi məsələləri əhatə edən dərinləşdirilmiş müsahibənin keçirilməsi nəzərdə tutulmuşdur.
Ümumilikdə 500-dən çox şəxs arasında sorğu və 50 nəfərə yaxın şəxsdən dərinləşdirilmiş müsahibə keçirilmiş və nəticələri aşağıdakı şəkildə təqdim edilir.

**Əsas anlayışlar:**
Tədqiqat zamanı aşağıdakı anlayışlardan istifadə olunmuşdur[2]:
**İnsan alveri** - zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi (uşağın istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi, bu maddədə göstərilən üsullardan istifadə olunmasa da, insan alveri hesab edilir);

[2] İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu: http://www.e-qanun.az/framework/10641

**İnsanların istismarı** - məcburi əmək (xidmət), cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə, habelə insanların digər formada istismar edilməsi (insan alveri, İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanununun 1.0.1-ci maddəsində göstərilən üsullarla törədildikdə insan alveri qurbanının istismar olunmasına dair razılığı nəzərə alınmır);
**Məcburi əmək (xidmət)** - qanunsuz olaraq şəxsin müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur edilməsi;
**Cinsi istismar** - şəxsin fahişəlikdə, seksual köləlikdə və ya pornoqrafik materialların istehsalında istifadə edilməsi, digər şəxslərin cinsi istismarından mənfəət əldə edilməsi;
**Köləlik** - şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətlərin tam və ya qismən həyata keçirilməsi;
**Köləliyə bənzər adətlər** - 1956-cı il 30 aprel tarixli "Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında Əlavə Konvensiya"nın 1-ci maddəsində göstərilmiş institut və adətlər;
**İnsan alverçisi** - insan alveri ilə əlaqədar hər hansı fəaliyyəti həyata keçirən fiziki və ya hüquqi şəxs;
**İnsan alverinin qurbanı** - insan alverindən zərər çəkmiş, yaxud zərər çəkməsi ehtimal olunan şəxs;
**Uşaq** - 18 yaşına çatmayan şəxs;
**İnsan alverinin potensial qurbanları** - avaralıqla və ya dilənçiliklə məşğul olanlar, səfil, əxlaqsız həyat tərzi sürənlər, kimsəsiz, baxımsız, təhsildən qərəzli şəkildə yayınan uşaqlar, narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığı olan şəxslər.

**Dərlinləşdirilmiş intervyuların (müsahibələrın) nəticələrinin təhlili**

Ümumilikdə, müasir dövrdə insan alveri ilə mübarizə hələ də öz aktuallığını itirməmişdir. Bu problemin sosial-iqtisadi səbəbləri də kifayət qədərdir. Azərbaycan da dünya birliyinin bir üzvü kimi bu problemdən yan keçməmişdir. Problemlərin effektiv həlli üçün onun səbəblərini öyrənmək, insan alveri qurbanlarının ümumi sosial-demoqrafik xüsusiyyətlərini öyrənmək, habelə riskli qrupları müəyyənləşdirmək və insan alverinə qarşı preventiv xarakterli tədbirlər alınmamışdan əvvəl tədqiqatlar aparmaq çox faydalı olardı. Bu mənada qeyd edilən tədqiqat, daha çox insan alveri qurbanları ilə birbaşa təmas quraraq anketə əsaslanan sahə araşdırması və ekspertlərlə dərinləşdirilmiş müsahibə əsasında aparılmışdır.

Dərinləşdirilmiş müsahibə insan alverinin qarşısının alınmasında hüquq-mühafizə orqanlarının əməkdaşları, bu sahədə mübarizə aparan dövlət qurumları, ixtisaslaşmış vəkillər və jurnalistlər, habelə insan alveri qurbanları ilə işləyən vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələrini, sığınacaq işçiləri və digər ekspertləri əhatə etmişdir.
Dərinləşdirilmiş müsahibələr zamanı verilmiş hər bir suala cavablar əsasında aşağıdakı istiqamətlərdə mütəxəssislərin fikri öyərilmiş və müvafiq cavab alınmışdır.

**Risk Qrupları**

"Hansı sosial qrupları insan alveri üçün risk qrupları hesab etmək mümkündür?", "Sizcə insan alveri qurbanına çevrilmə ehtimalı daha çox kimlərdədir?" və "İnsan alveri qurbanının orta statistik sosial və psixoloji portreti haqqında hansı məlumatlarınız var"? suallarına müsahiblər əsas etibarilə aşağıdakıları qeyd etmişlər:

İnsan alveri qurbanları
- Məişət zorakılığına mərzu qalan qadınlar
- Ailədə iqtisadi asılılığı olan qadınlar.
- Yaxın qohum və tanışları tərəfindən aldadılan insanlar
- Sosial vəziyyəti ağır olan boşanmış və ya dul qadınlar.
- Erkən nikahın qurbanları
- Məişət zorakılığı qurbanları

Potensial insan alveri qurbanları, əsasən 7-14 yaş arası dilənçiliyə məcbur edilən uşaqlardır. Belə ki, bu uşaqlar həm cinayətkar qruplar, həmçinin, hətta bəzi hallarda öz valideynləri tərəfindən dilənçiliyə cəlb edilir. Bundan başqa 14-18 yaş arası olan "patı", "şüşə", "kley" istifadəçisi olan uşaqlar, baxımsız, tüfeyli həyat sürən uşaqlar da potensial insan alveri qurbanları kimi qeyd olunur.
İnsan alveri qurbanlarına adətən təhsilsiz insanlar, erkən nikah-məişət zorakılıq qurbanları, iqtisadi rifah səviyyəsi aşağı olan şəxslər, boşanmış ailələr, dilənçiliyiə sövq olunmuş şəxslər, narkotik asılılığı olan şəxsləri aid etmək olar. Qurbanlarla ünsiyyətdən görünür ki, qohum, dost boyük rol oynayır.
Qeyd: Nəzərə almaq lazımdır ki, dərinləşdirilmiş intervyular zamanı və qurbanlarla keçirilən sorğunun nəticələrində bu və ya digər məsələlər üzrə məsələyə münasibət fərqli ola bilər. Mütəxəssis rəylərinin qurbanların rəyləri ilə fərqli olması başa düşüləndir.

**Məcburi əmək və cinsi istismar**

DİN İnsan Alveri İdarəsinin cari ildə Milli Məclisə təqdim etdiyi hesabatda bildirilir ki, İnsan alverinin geniş yayılmış formalarından olan məcburi əməyə qarşı mübarizənin gücləndirilməsinə önəm verilərək bu istiqamətdə qarşıda duran vəzifələr planlı şəkildə yerinə yetirilmişdir. Bu xüsusda, ölkə üzrə bağlanılan əmək müqavilələrinin sayında 327 min artımın qeydə alınması və onlardan 230 minə yaxın müqavilənin özəl sektorun payına düşməsi, eləcə də işsiz və iş yerini müvəqqəti itirmiş şəxslərə dövlət tərəfindən 450 milyon manat vəsaitin ödənilməsi qeyri-formal məşğulluğun azalmasında və məcburi əmək cinayətlərinin profilaktikasında mühüm amillərdən olmuşdur.

İnsan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması sahəsində həyata keçirilmiş əməliyyataxtarış tədbirləri ilə 155 insan alveri, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 40 cinayət qeydə alınmışdır. 2019-cu illə müqayisədə sözügedən hüquqazidd əməllərin sayının 14 fakt və ya 7,5 faiz artması əvvəlki illərdə törədilmiş latent xarakter daşıyan cinayətlərin daha çox aşkarlanması ilə əlaqədar olmuşdur. Məcburi əmək cinayətlərinin hamısı, insan alveri cinayətlərinin isə 98 faizi açılmış, onları törətmiş 7 nəfərdən ibarət 3 cinayətkar qrup zərərsizləşdirilmişdir.

Axtarışda olan 23 təqsirləndirilən şəxsdən 10-u tutulmuş, xarici dövlətlərdə gizlənən qalan 13 nəfərin aşkarlanıb ölkəyə ekstradisiya olunması istiqamətində isə hazırda lazımi tədbirlər görülür. İnsan alveri və məcburi əmək cinayətlərinə görə başlanılmış cinayət işləri üzrə 20 şəxs (17 qadın, 3 kişi) təqsirləndirilən qismində cəlb edilmişdir. Məhkəmələr tərəfindən ittiham hökmü çıxarılmış 15 nəfərdən 12-i azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, 2 nəfər şərti məhkum edilmiş, 1 nəfərin cəzası təxirə salınmışdır.
Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin sayının aşkarlanmış faktlara nisbətdə az olması bir insan alverçisinin bir neçə qurbanı istismar etməsindən irəli gəlməklə bu növ cinayətlərin xarakterik əlaməti kimi qeyd olunmalıdır. Müəyyən edilmiş 94 insan alveri qurbanından (89 qadın, 3 kişi, 2 uşaq) 93-ü Azərbaycan Respublikasının vətəndaşı, 1-i əcnəbi olmuşdur (Rusiya Federasiyasının vətəndaşı). Onlardan 81-i cinsi istismar məqsədilə Türkiyə Respublikasına, 4-ü Birləşmiş Ərəb Əmirliklərinə aparılmış, 9-u ölkə daxilində məcburi əməyə məruz qalmışdır[3].
Rəyi öyrənilənlərdən biri hesab edir ki, məcburi əməkdən istifadə son dövrlər daha çox nəzərə çarpır. Salfetka və ya digər əşyalar satmaq adı ilə müəyyən şəxslərə narkotik satışına cəlb olunurlar. Cinsi istismar halları da təbii ki, əsas problemlərdən biri kimi qalmaqda davam edir.
Rəyi soruşulanlar misal olaraq, Bakı şəhərində və digər regionlarda “Hostel”, “Masaj” salonları adı altında cinsi istismara məruz qalan şəxslərdən istifadə edilməklə fəaliyyətlər həyata keçirilir. Uşaqların dilənçiliyə cəlb edilməsi halları da mövcuddur.

Müsahiblər bildirir ki, internet vasitəsilə uşaqların istismarı, habelə mobil telefonları vasitəsi ilə pornoqrafik materialların yayılması ilə əlaqədar narahatdırlar. İnternetdən istifadə edən uşaq və gənclərin sayının artması, internetin sosial şəbəkələrinin

[3] İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik hesabatı (19.05.2021) https://www.insanalveri.gov.az/upload/Hesabat_04.21_MK-converted.pdf

genişlənməsi, internetdən istifadə edən uşaqların yaşının azalması bu problemi Bakının paytaxtında və Azərbaycanın digər böyük şəhərlərində daha da ciddiləşdirir.

**Preventiv tədbirlər**

DİN İnsan Alveri İdarəsinin rəsmi məlumatına əsasən, Koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə sosial izolyasiya tədbirlərinin tətbiqinə başlanıldığı 2020-ci il 14 mart tarixinədək olan müddətdə daxili işlər orqanları tərəfindən insan alveri ilə bağlı orta-ixtisas və ali təhsil müəssisələrində 350-dən çox görüş, yığıncaq və konfrans keçirilmişdir. Ümumilikdə 7 min şagirdin və onların qanuni nümayəndəsinin iştirak etdiyi həmin tədbirlərə səhiyyə qurumlarının həkim mütəxəssisləri və psixoloqlar cəlb olunmuşdur. Sonrakı dövrlərdə maarifləndirmə işi onlayn formatda təşkil edilmişdir.
Eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi 2020-ci ilin mart ayınadək Bakı şəhərində və Respublikanın bir çox şəhər və rayonlarında gənclər mərkəzlərində, ali təhsil müəssisələrində, orta-ixtisas müəssisələrində, səhiyyə müəssisələrində və s. insan alveri sahəsində müxtəlif mövzülarda, görüşlər, maarifləndirici tədbirlər və dəyirmi masalar həyata keçirmişdir. Dünyada elan edilmiş pandemiya ilə əlaqədar olaraq tədbirlər onlayn formatda davam etdirilmişdir.
Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası insan alverinə qarşı mübarizə sahəsində ümumilikdə 31 tədbir keçirmiş, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri isə 15-ə yaxın televiziya və radio kanalında, eləcə də elektron kütləvi informasiya vasitələrində maarifləndirmə xarakterli verilişlərdə iştirak etmişlər.
"İnsan alverinə qarşı mübarizədə hansı preventiv tədbirlər həyata keçirilir, effektivdirmi və ölkəmizdə preventiv tədbirlərin vəziyyətini necə qiymətləndirirsiniz?" sualına cavab olaraq əsas etibarilə preventiv tədbirlərin əhəmiyyət daşımasını vurğulamaqla bərabər, effektivliyi ilə bağlı bir sıra fikirlər söylənmişdir. Belə ki, qeyd olunur ki, preventiv tədbirlər zamanı ənənəvi metodlar, kütləvi maarfiləndirici tədbirlər, profilaktik söhbətlər (misal üçün məktəblərdə) istifadə olunsa da valideynlərin özlərinə fərdi yanaşmaya daha çox ehtiyac vardır.
İnsan alverinə qarşı mübarizədə görülmüş işlərin ictimaiyyətə çatdırılması məqsədilə yaradılmış sayt (www.insanalveri.gov.az) məlumatlılıq baxımından təqdirəlayiq hesab edilsə də, regionlarda internetə çıxışın aktivliyi aşağıdır.

**Sosial müdaifə sistemi**

İntervyuda iştirak edən şəxslər qeyd edir ki, sosial müdafiə sistemi son illər uğurlu fəaliyyət göstərsə də, işsizlik problemi insan alveri problemini yaradan səbəblər arasındadır. Ailələrin sosial təminat tədbirlərinin gücləndirilməsi, məşğulluqla təmin edilməsi istiqamətində bir sıra gözləntilər mövcuddur.
Burada əsas məsələ işsizlikdir. Ailə işsizlik səbəbindən, sosial rifah səviyyəsi aşağı olduqda, uşaqları məcburi əməyə cəlb etmə halları artır.
Xüsusilə tək valideyn boşanmış ana olan ailədə, ata tərəfindən alimentlərin ödənilməsi problemi olduqda vəziyyət daha çətin olur. Çıxış yolu kimi, Aliment fondunun yaradılması müsahiblər tərəfindən təklif olunmuşdur. Lakin, o da məlum

olmuşdur ki, bəzi hallarda, yüngül həyat tərzi sürənlər, məqsədləri əlavə gəlir əldə etmək olan şəxslər, işsizlik məsələsindən bir bəhanə olaraq istifadə edirlər.
Sosial müavinətlərin əlçatmaz olduğunu problem kimi görənlər də var. Məsələn, ünvanlı sosial yardım almaq istəyən bir sıra şəxslər yardımı ala bilmədiklərindən gileylənirlər. Hətta bu mövzuda artıq bir sıra regionlarda lətifələr də qoşulmuşdur.
Belə bir təklif irəli sürülmüşdür ki, sosial müavinətlərin ünvanlılığını təmin etmək üçün elektron baza təşkil olunmalı və bu bazaya əsasən avtomatik ünvanlı yardım ala biləcək şəxslərin sadələşdirilmiş kateqoriyaları və müəyyənləşdirmə mexanizmləri müəyyən olunmalıdır.

# Ailə institutunun rolu

Azerbaycanda ailənin rolu həmişəki kimi çox vacib olsa da, artıq yanaşmada dəyişikliyə ehtiyac olduğunu qeyd edənlər var. Ənənəvi ailə modeli artıq digər formaya keçir. Boşanmaların artması öz mənfi təsirini göstərməkdədir. Bizim adət ənənədə ailə güclü rol oynadığına görə, pozitiv məcrada bundan istifadə etmək olar. Amma burada ailə üzvlərinin hər birinin məsuliyyətinin aşılanması baxımından daha həssas yanaşma lazımdır. Ailə institutunda məsuliyyət olmalıdır. İctimai qınaq və ictimai nəzarət artırılmalıdır. Valideyn hüquqlarının məhdudlaşdırılması praktikasından istifadə ciddi şəkildə tətbiq olunmalıdır. Qeyri-rəsmi nikahların qarşısının alınması istiqamətində addımlar davam etməlidir. Qanunvercilikdə dini nikahların həyata keçirilməsinin qarşısını alan müddəaların təcrübədə həyata keçirilməsinə daha məsuliyyətli yanaşılmalıdır. Uşaqlar müstəqil olmaq istəyir. Bu problem yaradır. Uşaqlarla işdə uşaqların ən ümdə maraqları prinsipi əsas götürülərək valideynlər maarifləndirilməlidir. Misal üçün, valideynlər arasında ümumi orta təhsilin üstünlükləri və təhsilini yarımçıq saxlamış və erkən yaşlarında işləməyə başlamağın zərəri haqqında maariflənmə işləri gücləndirilməlidir.

**Qanunvericiliyin təkmilləşdirilməsi**

Ötən ilin ən mühüm hadisələrindən biri Azərbaycan Respublikası Prezidentinin 2 iyul tarixli Sərəncamı ilə insan alverinə qarşı mübarizəyə dair sayca dördüncü Milli Fəaliyyət Planının təsdiqlənməsi olmuşdur. 22 iyul 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.
"Dövlət rüsumu haqqında" Qanuna edilən dəyişikliyə əsasən xarici dövlətdə müəyyən edilmiş insan alverinin qurbanları Azərbaycana qayıdış şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumundan azad olunmuşlar.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də insan alverindən zərər çəkən və ya cinayət təqibi orqanlarına yardım göstərən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatının cinayət təqibi orqanının yerləşdiyi ünvan üzrə aparılması proseduru təsbit edilmişdir. Respondentlər insan alveri səbəblərinin aradan qaldırılması isitqamətində bir sıra təklif və tövsiyələr vermişlər. Bütün təkliflər ümumiləşdirilərək, bu sənədin təkliflərlə bağlı bölməsində qeyd edilmişdir.

**Maarifləndirici tədbirlərin və təlimlərin qiymətləndirilməsi**

İnsan Alveri üzrə Milli Fəaliyyət planının 4.8.4-cü bəndinə əsasən insan alveri ilə bağlı keçirilən bütün maarifləndirmə tədbirlərinin və təlimlərin nəticələrinin təşkilatçılar və iştirakçılar tərəfindən qiymətləndirilməsi təcrübəsinin tətbiq edilməsi qeyd olunur.

Bu məqsədlə intervyu, fokus qruplarla görüşlərdə insan alveri sahəsində indiyədək keçirilmiş təlimlərin qiymətləndirilməsi məqsədilə iştirakçılarla müzakirələr aparılmış

və sorğu anketləri respondentlər tərəfindən cavablandırılmışdır. (Sorğu anketi nümunəsi əlavə olunur).

Müzakirələr və anket sorğuları zamanı müəyyən edilmişdir ki, maarifləndirici tədbirlər əsas etibarilə həm insan alverinə qarşı bu və ya digər formada mübarizəni həyata keçirən orqanların işçiləri arasında, həm də geniş əhali qrupları arasında aparılması təklif olunur. Maarifləndirmənin effektivliyinin artırılması üçün sosial reklamdan geniş istifadə olunması təklif olunmuşdur.

İnsan alveri məsələsində cəmiyyətdə bir növ potensial və ehtimal olunan insan alveri ilə bağlı stiqmanın mövcud olduğuna görə, maarifləndirmə işlərinin məhz bu stiqmanın aradan qaldırılması istiqamətində işlər sürətlənməlidir. Çünki həm dövlət orqanları əməkdaşları, işçiləri arasında, eyni zamanda QHT-lər, jurnalistlər və digər ictimaiyyət üzvləri arasında, insan alveri dedikdə yalnız cinsi istismarı və fahişəliyin nəzərdə tutulması müşahidə olunur.

Fürsətdən istifadə olunaraq, anket sorğuları vasitəsilə rəyi soruşulanlar arasında indiyədək həm dövlət, həm də qeyri-dövlət qurumalrı tərəfindən insan alveri mövzusunda keçirilən təlimlərin effektivliyinin ölçülməsi məqsədilə anket sualları verilmişdir. Bu cür təlimlərdə iştirak etmiş və təlimlər barədə xəbəri olanlar arasında olan insanlar tərəfindən verilən cavablardan müəyyən edilir ki, bu cür təlimlər ənənəvi klassik qaydada keçirilir. Təlim metodikalarında yenilik və kreativ yanaşma çatışmır. Misal olaraq, insan alveri mövzusunda keçirilən təlimlərdə, təklif olunur ki, təlimdə, mühazirə və seminar xarakterli tədbirlərdən əlavə interaktiv informasiya sessiyaları keçirilsin. Bu cür sessiyalarda öncədən icra orqanları tərəfindən müyyən edilmiş insanlar yox, məhz bu məsələdə hər hansı köməyə ehtiyacı olan insanlar da cəlb edilsin və onlar yerində təmənnasız məsləhət xidmətləri alsınlar (məsələn, izahedici, hüquqi, psixoloji məsləhətlər və s.).

Digər maarifləndirici tədbirlərlə bağlı onu qeyd etmək olar ki, Reklam haqqında qanunun 10.5-ci maddəsinə əsasən mülkiyyət formasından asılı olmayaraq, hər bir reklam yayıcısı televiziya və radio yayımı zamanı reklam üçün ayrılan efir vaxtının, nəşrlərdəki reklam yerlərinin və reklam qurğularının ümumi sahəsinin ən azı səkkiz faizini sosial reklam üçün ayırmağa borcludur. Sosial reklam efirdə məzmununa uyğun olaraq saat 9.00-dan 00.00-a qədər olan müddət ərzində yayımlanmalıdır.
Lakin təcrübədə intervyu olunan şəxslərin bəzilərinin qeyd etdiyinə görə, 8 faiz vaxt tələbinə preventiv tədbirlərin təbliği baxımından müşahidələrə görə əməl edilmir, xüsusilə də özəl media tərrəfindən. Buna görə də, bu qanunun icrası baxımından problemlərin daha ciddi monitorinq vasitəsilə aradan qaldırılması və kvotanın artırılmasına baxılmasına ehtiyac olduğu bildirilir.
Turkiyə təcrubəsində 20 faiz sosial reklam minimum kvota tələbi mövcuddur.
Bəzi müsahibələr zamanı belə bir təklif edilmişdir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nazirlik səviyyəsinə bərabər olacaq statusunu artırılsın. Bu onunla əlaqələndirilmişdir ki, bu halda Komitə digər funksiyaları ilə yanaşı insan alverinə qarşı mübarizədə problemlərin həllində daha təsirli səlahiyyətə malik ola bilər.

**İnsan alverinə gətirən ailə zorakılığı, alkoqolizm və digər qanun pozuntusu və asılılıq növləri ilə mübarizənin gücləndirilməsi**

İlk növbədə onu qeyd etmək lazımdır ki, ailə zorakılğı, narkomaniya, alkoqolizm və digər asılılıq növləri ilə mübarizə əksəriyyət tərəfindən vacib hesab edilir. Son dövrlər, xüsusilə də narkotiklərə qarşı mübarizədə əlaqədar dövlət orqanlarının yorulmaz fəaliyyəti, insan alveri ilə mübarizə baxımından potensial qurbanların da sayına təsir etməsi barədə fikirlər söynəlişmişdir. Bu sahədə həm DİN İnsan Alveri İdarəsinin cinayət təqibi və profilaktika istiqamətində tədbirləri, İnsan Alveri Qurbanlarina Yardım Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri Komitəsinin araşdırma və maarifləndirmə istiqamətində fəaliyyəti təqdirəlayiq hesab olunmuşdur. Lakin, yuxarıdakılar qeyd olunmaqla yanaşı, Bakıda və regionlarda bu sahədə problemlərin mövcud olduğu hiss olunmuşdur. Belə ki, əsas etibarilə Şirvan və Gəncədə bu cür problemlərin daha qabarıq şəkildə mövcudluğu qeyd olunur. Bu cür asılılığı olan şəxslər isə asanlıqla cinayətkar qrupların şikarlarına çevrilir və insan alverinin qurbanı olma risklərini artırır.
Bundan başqa təkliflər olmuşdur ki, uşaqların içki almamaq qadağasında daha ciddi əməl olunması üçün reydlər, montiorinqlərin aparılması və maarifləndirmə vasitəsilə bu cür hallarda ictimai qınağın artırılmasına səy göstərilməlidir. Bu məsələdə valideyn məsulliyyətinin artmasına ehtiyac vardır. Narkoloji dispanserlərin effektiv fəaliyyətinə nail olunmalıdır. Onlara inam bu cür vərdişlərdən asılı olan şəxslər tərəfindən artırılmalıdır. Maarifləndirici xarakterli tədbirlər artmaldır.

**Preventiv xarakterli tədbirlər daha effektivdir yoxsa repressiv?**

Bu suala cavab verərkən heç də hamı tərəfindən birmənalı mövqə bildirilməmişdır. Əsas fikir ondan ibarətdir ki, preventiv və repressiv tədbirlərin tətbiqi individual yanaşma tələb edir. Əgər preventiv tədbirlər hər hansı bir şəxsə münasibətdə effekt vermirsə, repressiv xarakterli tədbirlərdən (məsələn, cəzalar, tənbeh növləri) istifadə edilməlidir. Amma ümumilikdə isə cəmiyyətə münasibətdə, təbii ki, humanizm baxımından preventiv yanaşma tətbiq edilməli, amma yanaşma bu zaman düzgün qurulmalıdır.
Repressiv tətbirlərə gəlincə isə cinayət təqibi və qurbanlarla iş insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması sahəsində həyata keçirilmiş əməliyyataxtarış tədbirləri ilə 155 insan alveri faktı, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 40 cinayət qeydə alınmışdır. 2019-cu illə müqayisədə sözügedən hüquqazidd əməllərin sayının 14 fakt və ya 7,5 faiz artması əvvəlki illərdə törədilmiş latent xarakter daşıyan cinayətlərin daha çox aşkarlanması ilə əlaqədar olmuşdur.

**Vətəndaş cəmiyyəti təşkilatlarının rolu**

Azərbaycanın qoşulduğu Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasının İnsan alverinin və xüsusilə qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılmasına dair Protokolununun 9-cu maddəsinin 3-cü bəndinə əsasən bu Protokolun icrası zamanı Qeyri-hökümət təşkilatları və digər vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlıq üzv dövlətlərə tövsiyə olunmuşdur. Belə ki, həmin müddəaya əsasən, “Qeyri-hökumət təşkilatları çox vaxt insan alveri qurbanlarının ehtiyaclarını başa düşmək və təmin

etmək üçün daha yaxşı mövqeyə malikdirlər və bir çox təşkilat əhəmiyyətli təcrübələri və potensialı inkişaf etdirmişdir”[4].
Dərinləşdirilmiş intervyular bir sıra QHT və media qurumları nümayəndələri ilə də təşkil edilmişdir. Vətəndaş Cəmiyyəti təşkilatlarının əsas rolu bu cür məsələlərin düzgün və obyektiv işıqlandırılması ilə (misal üçün media vasitəslié), və ya aktuallıq kəsb edən məsələlərlə bağlı ictimai müzakirələrin keçirilməsi yolu ilə, və ya əhalinin ümumi maarifləndirmə və hüquq düşüncəsi səviyyəsinin artırılması yolu ilə insan alveri problemlərinin həllinə yardımçı olmaqdan ibarət ola bilər.
Azərbaycan Uşaqlar Birliyi, Təmiz Dünya, Təmas İctimai Birliyi və digər, sığınacaqlara sahib olan QHT-lər insan alveri qurbanlarına və potensial qurbanlara əsas etibarilə sosial və müdafiə xarakterli xidmətlərin göstərilməsi baxımından mühüm əhəmiyyət kəsb edirlər.
Ümumiyyətlə isə, rəyi soruşulanlar əsas etibarilə QHT-lərin rolunu ölkədə problem barədə ictimai rəyin formalaşdırılması baxımından əhəmiyyətli olduğunu qeyd etmişlər.

**İnsan alveri qurbanı ilə ilkin görüş zamanı psixoloji vəziyyətinin qiymətləndirilməsi**

Bu sual əsas etibarilə sığınacaqlarda çalışan rəhbərlik və digər işçilərlə müzakirə olunmuşdur. Sığınacaq rəhbərlərinin qurbanların sığınacağa qəbul edilərkən psixoloji qurumunun qiymətləndirilməsi prosesini, müsahiblərin olduğu kimi qeyd etdiyi formada nəzərə çatdırırıq:

- Sığınacaq işçilərinin qeyd etdiyinə görə, qurbanları ilk olaraq qəbul edən sosial işçi ilkin qiymətləndirmə apardıqdan sonra, müraciət etmiş şəxs aidiyyatı üzrə psixoloji qiymətləndirmə üçün mərkəzdə çalışan psixoloq qəbuluna yönləndirilir. Psixoloq ilkin test aparır və şəxsin durumunu müəyyən edir. Əgər psixiatr dəstəyinə ehtiyac duyularsa, aidiyyatı üzrə yönləndirilir. Bundan sonra potensial qurbanla mutəmadi terapiya başlayir. Birbaşa qurbanla isə ilkin növbədə psixoloq goruşür. Çünki belə hesab olunur ki, birbaşa qurbanın vəziyyəti ağır ola bilər. Sakitləşdirici dərman preparatları da təyin edilə bilər. Potensial qurbanla müqayisədə əksər hallarda birbaşa qurbanla terapiya daha uzun çəkir.

Cinsi istismar zamanı nə kimi travmaların baş verdiyinin müəyyənləşdirilməsi üçün testlər aparılır və ondan sonra fərdi iş müəyyən edilir. Qısamüddətli və uzunmüddətli psixoloji yardım növləri mövcuddur. Müsahibələr zamanı müəyyən edilmişdir ki, fərdi, onlayn qaydada psixoloji yardim gostərən sığınacaqlar da mövcuddur.

**İnsan alveri qurbanı olmuş qadınlar və uşaqlar üçün psixoloji reabilitasiya proqramları**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Sosial Xidmətlər Agentliyinin İnsan alveri qurbanlarına Yardım Mərkəzi insan alveri qurbanlarınn reabilitasiyası, cəmiyyətə reinteqrasiyası və normal həyat tərzinə qaytarılması üçün zəruri tədbirlər görür. Mərkəz işçiləri ilə söhbətdə məlum olmuşdur ki, bu mərkəzdə

[4] UNODC, İnsan alverinin və xüsusilə qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılmasına dair Protokolu üzrə Model Qanunvericilik Bələdçi sənədi, Vyana 2020.

davamlı olaraq psixoloq, hüquqşünas, sosial işçilər fəaliyyət göstərir. Psixoloji xidmət və reabilitasiya proqramları mövcuddur. İnsan alveri qurbanlarına və potensial insan alveri qurbanlarına mərkəzdə məşğulluqla təmin edilməsində yardım göstərilir, eyni zamanda hüquqi yardım, psixoloji yardım və tibbi yardımlar da (səhiyyə müəssisələrinə yönləndirmə) mövcüddur. İnsan alveri qurbanları ehtiyac olduqda peşə kurslarına yönləndirilir. Bu əsas insan alveri problemini yaradan amillin aradan qaldırılması ilə bağlıdır. Onlar ödənişsiz peşə kurslarına gondərilir. Kurslardan sonra özünəməşğulluq proqramina cəlb olunurlar.
QHT-lər tərəfindən idarə olunan reabilitasiya mərkəzlərində həm qadınlar, həm də uşaqlara psixoloji realibitasiya proqramları və həmin şəxslərlə prixoloji iş aparılır.

**İnsan alveri qurbanına çevrilmələrinə səbəb olan amillər. Kommunikasiya və səmimilik**

Mütəxəssislərin rəyinə əsasən, şəxslərin insan alveri qurbanlarına çevrilməsinin aşağıdakı amillər təsir göstərə bilər:

- Ailənin bilik və ümumi dünyagörüşü səviyyəsi
- Ailənin maddi vəziyyəti ilə bağlı durumu
- Ailə zəminində yaranan münaqişələr
- Yaxın qohumlara inam və bu inamdan sui-istifadə
- Kənar şəxslərlə ünsiyyət
- Sosial şəbəkələrdə aldanma
- Təhsil səviyyəsi və ümumi məlumatlılıq səviyyəsinin aşağı olması
- Uzun müddətli işsizlik
- Miqrasiya prosesləri (həm xarici, həm daxili).
- Uşaqların dilənçiliyə sövq olunmasına münasibət
- İctimai qınağın yox dərəcəsində olması

İnsan alveri qurbanları ilə birbaşa ünsiyyət zamanı onların nə dərəcədə səmimi olub olmaması həmin təsisata olan inamdan irəli gəlir. Bu da onlara göstərilən həssas yanaşmadan asılıdır. Onların özlərinə olan özünəgüvən dərəcəsi səmimiliklərinə təsir edir.

**Erkən nikah, nikahdan kənar övladlara, boşanmış qadının işləməsinə qərəzli baxışlarla mübarizə**

Müsahiblərdən birinin dediyinə görə, regionların birində erkən nikahdan 4 uşaq doğulmuşdur. Hətta bu hal kəndlərdən birinin icra nümayəndəsinin oğlunun ailəsində baş vermişdir. Bu cür ailələr barədə məlumat əldə olunduqca, bu cür ailələrə fərdi səfərlər edilməli, ailənin bu məsələyə biganəliyinin aradan qaldırılması istiqamətində o cür icmalarla izahedici işlər aparılmalıdır. Belə ki, bu cür hallar həmin icmalarda yaşayanların ümumi bilik və təhsil səviyyəsindən asılı olmayaraq, stereotip düşüncə, zərərli adət-ənənələrlə bağlı izah oluna bilər.

Keçirilmiş müsahibələrin nəticəsi göstərir ki, əhali arasında insan alveri mövzusu ilə bağlı məlumatlandırma azdır və ya yoxdur. İnsan alveri qurbanlarına cəmiyyətdə münasibət qənaətbəxş deyil. Qohumlar, yaxınlar, qonşular və tanışlar onları qınayır, keçmiş neqativ təcrübələrinə görə az hörmət edir, aqressiv yanaşırlar. Bu yanaşmanın dəyişməsi üçün müxtəlif tədbirləri artıq bu gündən etibarən görmək lazımdır. Bu tip yanaşmaya səbəb stereotiplərin olması, yəni bir dəfə neqativ hadisənin qurbanı olubsa, demək bir daha olma ehtimalı çoxdur kimi fikirlərin

insanlarda olması ilə bağlıdır. Eyni zamanda müəyyən qrup insanlar sosial təcrid olunması baxımından onlar həyatlarını dəyişmək məqsədilə xaricə köçməyi ən yaxşı və perspektivli çıxış yolu hesab edirlər.

Ənənəvi ailə modelinin dağılması və müasir ailə modelinin formalaşması gənclər və yetkinlik yaşına çatmayanlar arasında əxlaqi dəyərlərin azalmasına gətirib çıxara bilər. Ailənin təməli möhkəm olmayanda isə ailədaxili problemlər və münaqişələr yaranır. Bu problemə eləcə də işsizlik və maddi vəziyyətin aşağı olması, narkotik, alkoqol və qumar oyunlarından asılılıq da səbəb olur. Bu siyahıda psixoloji durumu yaxşı olmayan və ya psixi sağlamlığı ilə problem yaşayan şəxslərin də olması mümkündür. Müxtəlif şəxslərdə ailədaxili münasibətlərdə problemlər çox olduğundan, heç kəslə bu narahatçılıqları bölüşə bilmədiyindən kənar şəxslərlə bölüşməyə başlayır. İnsan alverinin qarşısının alınmasına yönəlmiş tədbirlər planı şəxsiyyətin inkişafına istiqamətlənmiş bacarıqların formalaşmasını özündə birləşdirməlidir. Yekun nəticə olaraq qeyd etmək lazımdır ki, bu rəqəmlər əhali arasında maariflənməyə böyük ehtiyacin olmasının göstəricisidir.

Dini nikahlar zamanı ər rəhmətə getdikdə, qadınlar çətin həm hüquqi, həm də sosial vəziyyətdə qalırlar. Ərləri Suriya və digər yerlərdə rəhmətə getdikdə, arasında rəsmi nikah olmadığından qadınlar geri qayıtmaqda çətinlik çəkdikləri hallar mövcud olmuşdur.
Bəzi müsahiblər qeyd edir ki, boşanmış qadının işləməyinə artıq indi normal baxırlar. Digər müsahiblər isə regionlar arasında bu məslədə fərqlərin olduğu qənaətindədirlər. Bəziləri isə qəti olaraq bunu regionla yox, ailə üzvlərinin fərdi xarakteri ilə bağlayırlar.

**Regionlarda insan alveri qurbanlarına psixoloji dəstək**

İnsan alveri qurbanı yalnız dövlət tərəfindən tanınan qurban sayılır. Yəni potensial və ehtimal olunan insan alveri qurbanlarından yalnız çox cüzi faizi insan alveri qurbanı kimi tanırır. Yalnız insan alveri qurbanı kimi tanınanlar dövlət tərəfindən onlara düşən imtiyazlardan psixoloji, sosial, hüquqi və maddi yardımlardan yararlana bilirlər.
Lakin, QHT-lər və onlar tərəfindən idarə olunan sığınacaqlar, sosial xidmət müəssisələri bu sahədə aktivlik nümayiş etdirirlər.
Daha bir məsələ isə psixoloqların kompetentliyi məsələsidir ki, bu fakta bir sıra rayonlarda fokus qrup müzakirələri zamanı toxunulmuşdur. Bir çox müsahiblərin fikrincə regonlarda fəaliyyət göstərən psixoloqların professional bilik və bacarıq səviyyələri insan alveri qurbanları ilə professional səviyyədə iş üçün heç də kifayət etmir.
Psixoloqların bilik və bacarıqlarının artması istiqamətində xeyli işlər görülməlidir.
Maraqlı hal ondan ibarətdir ki, rəyi soruşulanların demək olar ki, heç biri problemlərin həllində sosial işçilərin rolu barədə söhbət açmamışdır. Hesab edirik ki, bu, əsasən məlumatın azlığı ilə əlaqələndirilə bilər. Gələcəkdə regionlarda sosial işçilərin rolu barədə vətəndaş cəmiyyəti və dövlət qurumları arasında sosial işlərin rolu barədə məlumatlılıq səviyyəsinin artırılması sahəsində təlimlərin keçirilməsinə ehtiyac duyulur.

**Valideyn himayəsindən məhrum olunmuş uşaqlar**

Kimsəsiz uşaqlar, küçə uşaqları həmyaşıdları tərəfindən cinsi və fiziki zorakılığa məruz qalırlar. Küçə uşaqları istismara məruz qalan uşaqların əsas hissəsini təşkil edir.
Ümumiyyətlə, uşaqların cinsi istismarı və onlara qarşı fiziki zorakılıqla bağlı institusional və ixtisaslaşdırılmış reabilitasiya mərkəzlərinin və sığınacaqların olmamasını müsahiblərdən bəziləri qeyd etmişdir.
Fiziki, emosional və cinsi istismara məruz qalan uşaqlarla psixoloji, emosional dəstək və ya sosial işin həyata keçirilməsi dövlət səviyyəsində yaradılan institutlar tərəfindən həyata keçirilməlidir.
Sənədi olmayan, qeyri rəsmi nikahdan doğulmuş, çətin tərbiyə olunan, valideyn himayəsindən məhrum olunan və baxımsız vəziyyətdə olan uşaqlar üçün ixtisaslaşmış xüsusi mərkəzlər olmamaqla bərabər, ƏƏSMN-nin və digər qurumlarda olan uşaq müəssisələri yalnız həmin uşaqların rəsmi sənədləri olan halda müəsissəyə qəbul edirlər. Sənədsiz uşalqar isə küçələrdə qalır, yalnız aşkarlandığı halda QHT-lərin nəzdində uşaq sığınacaqlarına yerləşdirilirlər.

**Bu sahədə dövlət proqramı və milli qanunvericilik sistemi beynəlxalq standartlara və mexanizmlərə uyğundurmu?**

Azərbaycan Respublikası Avropa Şurasının "Uşaqların cinsi istismardan qorunması haqqında" Konvensiyanı 2008-ci ildə imzalamış, lakin yalnız 2019-cu ildə ratifikasiya etmişdir və müddəaların həyata keçirilməsini təmin etmək üçün konkret tədbirlər planı hazırlanmamışdır. Təklif edilmişdir ki, bu məsələ ilə bağlı xüsusi dövlət proqramı hazırlansın.
Uşaqların cinsi istismarı və onlara qarşı fiziki zorakılıqla bağlı institusional və ixtisaslaşdırılmış reabilitasiya mərkəzlərinin və sığınacaqların mövcud olmamasını müsahiblərdən bəziləri qeyd etmişlər.
Küçə həyatına məruz qalan, təhsildən yayınan, əməklə məşğul olmayan, yoxsulluq və ya valideynlərdən heç bir diqqət görməyən uşaqlar, insan alverinin qurbanı olmaq riskinə təəssüf ki, daha çox məruz qalırlar. Ombudmsanın tövsiyəsi ilə uşaqların cinsi istisмarı və cinsi istismardan qorunması haqqında Avropa Şurası Konvensiyası ratifikasiya edildi. Bununla əlaqədar olaraq, Ombudsmanın uşaqların fiziki cəzadan qorunması haqqında qanunun qəbulunu sürətləndirmək, məişət zorakılığı və insan alverinə məruz qalan qadın və uşaqların sosial reabilitasiyası və sosial adaptasiyasına yönəlmiş proqramların hazırlanması və tətbiqi, xüsusi sosial-psixoloji reabilitasiya xidməti göstərən regional sosial sığınacaqlar da çox əhəmiyyətlidir.

**Milli qanunvericiliyin insan alveri ilə mübarizə sahəsindəki effektivliyi**

Nəzərə çatdıraq ki, insan alveri probleminin qarşısını almaq üçün dövlət tərəfindən ciddi işlər görülür, qanunvericilik bazası təkmilləşdirilir. Belə ki, BMT-də 2000-ci il dekabrın 12-də imzalanmış “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” konvensiyası, onu tamamlayan “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması” protokolu və 20 sentyabr 2002-ci il tarixində qəbul edilmiş “İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında” Brüssel bəyannaməsi 2003-cü il mayın 13-də Azərbaycan

Respublikasının qanunu ilə təsdiq edilib. 2005-ci ilin 28 iyun tarixində "İnsan alverinə qarşı mübarizə haqqında" qanunun qəbul edilməsi də xüsusi olaraq qeyd edilməlidir.
Azərbaycan insan alveri ilə bağlı dördüncü Milli Fəaliyyət Planını qəbul etməklə qeyd olunan sahədə institusional islahatları davam etdirməkdə, dünya birliyinin göstərdiyi səylərə dəstək verməkdə israrlı olduğunu bir daha təsdiqləmişdir. Bu gün yeni Milli Fəaliyyət Planına uyğun olaraq insan alveri və məcburi əmək faktlarının vaxtında aşkarlanması, təqsirli şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması, qurbanların müdafiəsi, cəmiyyətə reinteqrasiyası və digər vacib istiqamətlərdə aidiyyəti dövlət orqanları və vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əlaqədə sistemli iş aparılır. Ancaq bir sıra müsahiblərin fikrincə qanunvericiliyin tətbiqi zamanı bəzi problemlər yaranır.

Təklif səslənmişdir ki, küçə uşaqları ilə iş baxımından, xüsusilə onların insan alverinin potensial qurbanları kimi tanınması istiqamətində, onların statusunun müəyyən edilməsi və bu statusa əsasən insan alveri qurbanları kimi prosedurlar və dövlət siyasəti sənədləri qəbul edilməli və yanaşma dəyişilməlidir, lazım olduqda əlavə qaydalar və təlimatlar qəbul edilə bilər.
Qanunvericiliyə əsasən 16 yaşına çatmayan istər qız, istərsə də oğlanla könüllü cinsi əlaqə cinayət məsuliyyəti yaradır (əgər tərəflər arasındakı yaş 2 yaşdan artıq olmayarsa). 16 yaşdan sonra konüllü cinsi əlaqəyə məhdudiyyət yoxdur. Lakin yetkinlik yaşına çatmayan şəxslər 18 yaşa qədər olan şəxslərdir. Nikah üçün icazə verilən yaş məsələsində isə istisna hallarda 17 yaşa icazə verilə bilər. Bir sıra müsahiblər qeyd edir ki, regionlarda bu hal problemlər yaradır. Burada qanunvercilikdə yaş məsələsində uyğunlaşdırma aparılmalı olduğu respondentlər tərəfindən qeyd olunur. Bu məsələ ilə bağlı sənəddə konkret təklif öz əksini tapmışdır.

**Qurbanların sığınacağa yerləşdirilməsi proseduru və ya aidiyyəti dövlət qurumları arasında koordinasiya**

Rəsmi məlumata əsasən, zərərçəkənlərdən 80-i Daxili İşlər Nazirlyinin sığınacağına yerləşdirilərək hər birinə tibbi, psixoloji, hüquqi yardımlar göstərilmiş və sosial xidmətlərlə əhatə olunması məqsədilə qeyri-hökumət təşkilatlarına yönləndirilmişdir.
Müsahiblərin bir çoxu, keçirilmiş fokus qruplarda və fərdi intervyularda qeyd edirlər ki, xüsusilə uşaqlarla bağlı regionlarda dövlət qurumları və yerli icra orqanları ayrı-ayrılıqda öz işlərini yüksək səviyyədə həyata keçirdiklərinə baxmayaraq, fərdi işlərlə bağlı və ümumi fəaliyyətlə bağlı onlar arasında koordinasiya arzuolunan səviyyədə deyildir. Belə bir təklif səslənmişdir ki, yerli Bələdiyyələrin qanunla nəzdində fəaliyyət göstərən Məhəllə Komitələrində bir aile otaği yaradılsın. Yerli icmaların etibar etdiyi şəxslər, məsələn ağsaqqallar cəlb edilsin. Konkret sığınacağa yerləşdirmə ilə bağlı bəzi regionlarda keçirilən fokus qrup görüşlərində yerli Polis əməkdaşları ilə yeni yaranmış Sosial Xidmətlər Agentliyi ilə sosial reabilitasiya və reintegrasiya ilə bağlı məsələlərlə bağlı əlaləqələrin yaradılması tövsiyə olunmuşdur.
Qaraçılarla bağlı bəzi məsələlərin daha dəqiq müəyən olunmasına ehtiyac məsələsi də bəzi iştirakçılar tərəfindən səsləndirilmişdir. Qaraçılar əsasən dilənçilik fəaliyyəti ilə məşğul olsalar da, onların sənədlərinin yolxuğu sığınacaqlarda, reabilitasiya mərkəzlərində yerşəldirilməsinə mane olur. Onların, həmçinin, etnik mənşəyi də müəyyən edilməmişdir. Bu isə onların etnik mənşəyinin məlum olmaması, onlarla etnik azlıqlara nəzərdə tutulan yanaşmanın tətbiqinə də mane olur. Cəmiyyət onlarla

birgə yaşamağı qəbul edirmi? Cəmiyyətə qaraçıların insan alveri qurbanına çevrilməmələri üçün inteqrasiya tədbirləri aparılması çox vacib əhəmiyyət daşıyır. Sığınacağa yerləşdirmə zamanı tam məxfilik qorunmalıdır. İnsan alverçisi haqqında məlumat aldıqda qurbanın təhlükəsiz sığnacağa yerləşdirilməsi labüddür.

## COVİD19 Pandemiyasının problemə təsiri

Rəsmi məlumatlara əsaslanaraq qeyd edə bilərik ki, Pandemiya dövründə həyata keçirilən məşğulluq proqramı çərçivəsində 100 min nəfərin işlə təmin olunması, 12 min ailənin isə özünüməşğulluq proqramlarına cəlb edilməsi vətəndaşların məcburi əməyin qurbanına çevrilməsi riskini xeyli azaltmışdır.
Müsahiblərin bir çoxları (xüsusilə də sığınacaq və reabilitasiya mərkəzləri) bildirir ki, pandemiya görülən işlərdə bəzi axsatmaların yaranmasına gətirib çıxardı. Bu xüsusilə də şəxslərin onlara etibarı baxımından təsir edir. Yardımların sayı azalmiş, qurbanların xidmətlərə əlçatanlığı ilə bəlli axsatmalar olmuşdur. Pandemiya zamanı keçirilmiş kurslarda iştirakçı sayında azalmalar müşahidə edilmişdir.
Ümumilikdə cəmiyyətə təsiri baxımından ailə münasibətləri kəskinləşib. Konsultasiyalar zamanı bu hiss edilir. Evdə insanlar bir birini daha çox gördükcə problemlər çoxalır. Ailədə zorakılıq halları çoxalıb. İstər qızlar istər qadınlar daha çox döyülür. Boşananlar və boşanma həddində olanlar çoxalıb. Xidmətlərin göstərilməsi işinin aparılmasına gəldikdə isə, müəyyən işlər onlayn şəkildə aparılır. Bərpa və reabilitasiya işləri canlı təmas tələb etdiyindən daha çox zərər çəkmişlərə, məsələn panik attaklar və təşviş pozuntularında dərhal onlayn məsləhət vermək olur. Onlayn təmas zamanı bəzi səmimilik problemi yaranır.
Sığınacaqların birində söylənilən fikrə görə, pandemiya dövründə sanitar-gigiyena problemləri ilə bağlı məsələlərə pandemiya müsbət təsir göstərmişdir. Belə ki, bu cür problemi olan uşaqların sayı pandemiya dövründə sanitra-gigiyena qaydalarına daha ciddi əməl edilməsi səbəbindən, eləcə də ziyarətçilərin sayının kəskin azalması fonunda, xeyli azalmışdır. Amma pandemiyaya qədər hər dəfə dərmanlardan istifadə olunsa da, indi demək olar dərmanlara ehtiyac yoxdur. Ziyarətçilərin mərkəzi canlı şəkildə ziyarət etməyi çətinləşib. Pandemiyanın sərt günlərində mərkəzlərə xeyli adam gəlib dəstək olduğu halda, indiki bu məsələdə çətinlik var. Pandemiya zamanı işçilərin ixtisarla işə çıxma qaydası xidmət müəssisələrinin işində çətinlik yaradıb. Pandemiya zamanı ümumlikdə cinayət faktlarının azalması ilə səciyyələndirilə də bilər. (sığınacaqların müşahidələrinə görə).
Pandemiyanın yaratdığı problemlə bağlı həmçinin, onu da qeyd etməliyik ki, bəzi müsahiblərin fikrincə, pandemiyaya qədər xarici ölkələrə "seks işçi" kimi getmiş qadınların, pandemiya dövrü başlayandan etibarən Azərbaycana qayıtması prosesi müşahidə olunur ki, bu da bu və digər şəhər və rayonlarda vuzual olaraq insan alveri qurbanlarının sayının artması ilə müşahidə olunur. Təbii ki, bu məsələ ilə bağlı daha dərin araşdırmalara ehtiyac olduğu qənaətindəyik.
BMT-nin Narkotiklər və Cinayətkarlıq Ofisinin Qlobal İnsan Alveri hesabatına əsasən, Müəyyən edilmiş azərbaycanlı qurbanların əksəriyyəti digər ölkələrdən geri qayıtmış və bir çoxları daxili alverin qurbanı olublar[5].

[5] BMT Narkotiklər və Cinayətkarlıq Ofisi, Qlobal İnsan Alveri Hesabatı, https://www.unodc.org/documents/Global_Report_on_TIP.pdf

**Sorğu nəticələrinin statistik təhlili üzrə məlumat bazası**

**BİRİNCİ BÖLMƏ. İnsan alveri qurbanları və potensial risk qruplarının sosial-demoqrafik xüsusiyyətləri**

Cəmiyyətdə ümumi yaranmış düşüncəyə görə insan alveri qurbanları daha çox nisbətən aşağı gəlirli, aşağı təhsilli və nisbətən az təminatlı şəxslər arasından olmasıdır. Tədqiqat anketinin birinci bölümü bu yanaşmanın nə qədər etibarlı olub olmadığı haqqında ümumi bir fikir formalaşdırır. İlk növbədə insan alveri qurbanlarının statusu müəyyənləşdirilmişdir.




Tədqiqatın modelləşdirilməsi əsasında insan alveri qurbanlarının statusları anketlərdə 5 kategoriyada göstərilsə də, sonradan məişət zorakılığı qurbanları da əlavə edilmiş və insan alveri baxımından riskli qrup kimi dəyərləndirilmişdir. Diaqramdan göründüyü kimi sorğuda olanların 38%-i məişət zorakılığına məruz qalmış şəxslər olmuşdur. Bundan sonra çoxluq təşkil edən isə respondentlərin 29%-i ilə insan alverinin potensial qurbanları gəlir. İnsan alverinin potensial qurbanları arasında təxminən 10% narkotik və psixotrop maddələr qəbul edənlər, təxminən 25%-i isə yüngül həyat tərzi keçirən şəxslər olmuşdur. Respondentlər arasında koləliyə bənzər adətlər, köləlik statusunda olan şəxslərə rastlanmamışdır. Rayonlar üzrə statusların bölgüsündə də ciddi fərqlərin olduğunu müşahidə etmək mümkündür.




Ümumilikdə cinsi istismar statusunda olanlar Bakı-AUB-da və Ağcabədidə olanlarda daha çox idi və bu cinsi istismar statusunda olanların 55%-ni təşkil edir. Məcburi əməyə cəlb edilənlərə Bakı-AUB, Şirvan və Xaçmazda rastlanmamışdır. İnsan alverinin potensial qurbanlarına Ağcabədi və Gəncədə daha çox rastlanmışdır və ümumi potensial qurbanların təxminən 47%-i bu iki rayonun payına düşür. Qeyd edilən fərqlər nəzərə çarpacaq fərqlər olub, digər statusda olan fərqlər o qədər də böyük deyildi. Ümumilikdə isə, insan alveri qurbanlarının statusları üzrə rayonların mənzərəsi müxtəlifdir.

Respondentlərin yaş ortalamasına nəzər yetirdikdə onların böyük əksəriyyətinin reproduktiv yaş qrupunda olduğunu görmək mümkündür. Əsasən Bakıdakı Azərbaycan Uşaqlar Birliyinin (AUB) yaş ortalaması digər regionlardan fərqlənir və nəzərə çarpacaq dərəcədə həm median, həm də ortalama yaş dəyərləri digərlərinə nəzərən daha aşağıdır. Respondentlər arasında ən az yaşı 14, ən çox isə 68 yaş olmuşdur Ümumilikdə 60 yaş və yuxarı yaş olanların sayı ümumi respondentlər arasındakı payı 4,7% olmuşdur. 14-18 yaş intervalında olanlar isə ümumi respondentlərin 3.8%-ni təşkil etmişdir. Aşağıdakı diaqramlar onu göstərir ki, insan alveri ilə məşğul olan şəxslərin seçdikləri qurbanlar əsasən reporduktiv yaş qrupuna aiddirlər.

Sorğuda iştirak edənlərin hamısı Azərbaycan vətəndaşları olmuşdur.




Anket sorğusu ölkənin müxtəlif regionlarında yerləşən sığınacaqlarda yaşayan, reabilitasiya və reinteqrasiya mərkəzləri, ailə dəstək mərkəzləri və digər sosial xidmət müəssisələrində olan şəxslər arasında keçirilmişdir. Ümumilikdə seçilən regionlar ölkənin böyük bir hissəsini əhatə edir və nəticələrin ümumiləşdirilməsinə imkan yaradır. Aşağıdakı qrafikdə respondentlərin hal hazırda yaşadığı regionlar üzrə bölgüsü aşağıdakı kimidir:

Bakı 30%, digər regionlar hərəyə 12-16 faiz olmuşdur. Bakı şəhərində sığınacaqların və imkanların daha çox olması qeyd edilən nəticəyə təsir etmişdir.

Respondentlərin gender bölgüsü isə aşağıdakı kimidir:



İnsan alveri ilə bağlı geniş yayılmış fikirlərdən biri də budur ki, qurbanlar arasında qadınlar əsasən çoxluq təşkil edir. Aparılan tədqiqatlar nəticəsində respondentlərin 82%-nin qadın, 18%-nin isə kişi cinsinə mənsub olduğu müəyyənləşdirilmişdir.

İnsan alveri baxımından riskli qrupların dəyərləndirilməsində təhsil faktoru da əhəmiyyətli göstəricilərdən biridir. Çox geniş yayılmış yanaşmaya görə insan alveri qurbanlarının təhsil səviyyəsi digər insanlara nəzərən daha aşağıdır. Eyni zamanda təhsil səviyyəsinin aşağı olması onların iqtisadi fəaliyyət, gəlir əldə etmək və karyera imkanları əldə etmək kimi fürsətlərə mənfi təsir göstərir. Yəni, təhsil səviyyəsi ilə iş və karyera ilə bağlı alternativlər arasında güclü pozitiv korrelativ əlaqə mövcuddur. Təhsil səviyyəsinin aşağı olması insanların alternativlərini azaltmaqdadır. İşlə bağlı alternativlər azaldıqca insan alveri qurbanı olma ehtimalı da artır. Sorğuda iştirak edən respondentlərin bu yanaşmaya nə qədər uyğun olub olmadığını aşağıdakı diaqram üzrə nəzərdən keçirmək mümkündür.




Bütövlükdə, bu mənzərəni təhlil etmək üçün ölkə üzrə ümumi təhsil səviyyəsi ilə müqayisə etmək daha mənalı olardı. Dövlət Statistika Komitəsinin 2021-ci ilin yanvarın 1-nə olan məlumatına əsasən ölkəmizdə hər 1000 nəfərdən 137 nəfəri ali təhsilli, 85 nəfəri orta-ixtisas, 627 nəfəri orta təhsilli, 125 nəfəri natamma orta təhsillidir. Bu rəqəmlər hər 1000 nəfərdən 974 nəfərin təhsilinin olduğunun göstəricisidir. Ümumilikdə göstəricilər arasında əsas fərq ali təhsillilər arasında görünməkdədir. Tədqiqatda iştirak edən respondentlər arasında ali təhsillilər 7% olduğu halda, ölkə üzrə isə bu göstərici təxminən 13.7% olub iki dəfə böyükdür. Əvəzində isə orta ixtisas təhsillilər arasında fərq təxminən 70%-dir. Orta təhsillilər və natamam orta təhsillilər arasındakı fərqlər isə cüzidir. Beləliklə daha çox populyarlaşmış düşüncənin əksinə olaraq insan alveri qurbanları ilə ümumi əhalinin təhsil səviyyəsi arasında ciddi fərq yoxdur. Belə nəticəyə gəlmək mümkündür ki, insan alveri qurbanlarına hər cür təhsil səviyyəsində olan şəxslər çevrilə bilərlər.

Eyni zamanda regionlar arasında da  təhsil səviyyələri üzrə ciddi fərqin olmadığını aşağıdakı qrafikdə müşahidə etmək mümkündür.




Qrafikdən göründüyü kimi bütün regionlara təhsil səviyyələri üzrə sıralamada ciddi fərq müşahidə edilməmişdir. Bütün regionlarda ali təhsillilər ən aşağı paya malikdirlər. Orta ixtisas təhsillilər Ağcabədi, Bakı şəhəri və Xaçmazda digərlərinə nisbətən daha yüksəkdir.

İnsan alveri qurbanlarının təhsil səviyyəsi ilə bərabər onların hansı peşələrə malik olması, bu peşələrin əmək bazarında tələb-təklif kontekstində mövqeyi də çox vacibdir. Daha çox təklifin olduğu və nisbətən az gəlirli peşələrin və işlərin qeyd edilən respondentlər arasında daha çox olacağını gözləmək mümkündür. Bəzi işlərdə xüsusi təhsil və peşəkarlığın tələb olunmadığı işlərin də respondentlər arasında xüsusi çəkiyə malik olmasını gözləmək mümkündür. Beləliklə respondentlərin peşələr üzrə bölgüsü aşağıdakı kimidir:




Respondentlər arasında peşə sahibi olanlar arasında ilk beşlikdə gələn peşələr müəllimlik, qadın bərbəri, ofisiantlıq, tikinti ustaları və satıcılıq olmuşdur. Ümumilikdə sayca ən çox olan 5 peşə üzrə 63 nəfər qeyd edilmişdir, bu, peşə sahibi olanların

55%-ni təşkil edir. Bu peşələrə nəzər yetirdikdə nisbətən aşağı gəlirli peşələr hesab edilməkdədir. Bu peşə sahibi olanların heç də hamısı müvafiq işlə təmin edilməmişdir. Müəllimlik xaricində digər peşələr xüsusi ali və orta ixtisas təhsili tələb etməyən peşələrdir. Ümumilikdə 33 peşə sahibi olanlar arasında sadəcə 5 peşənin ümumi peşə sahibi olanlar arasında 55%-lik çəkiyə sahib olması peşə baxımından respondentlərin nə qədər homogen olduğunu göstərməkdədir. Ümumilikdə isə respondenlərin sadəcə 24%-nin müəyyən peşəyə sahib olduğunu qeyd etmişdilər. Lakin peşə sahibi olmaq eyni zamanda hər hansı bir əmək fəaliyyəti üçün yetərli olmayıb peşə üzrə layiqli əməklə təmin olunması da ayrı bir problem kimi qarşımıza çıxmaqdadır.

Burada qeyd edilən peşələr eyni zamanda bir iş fəaliyyəti olub bəziləri üçün xüsusi peşə təhsili də tələb etmir. Gözlənilənlərə uyğun olaraq peşə sahibi bölgüsü ilə iş fəaliyyəti arasında uyğunluğu gözləmək mümkündür. Bu uyğunluq çərçivəsində respondentlərin əmək fəaliyyətinin məşğulluq təsnifatı üzrə bölgüsündəki sıralama da peşəyə uyğun olmalıydı. Beləliklə, respondentlərin əvvəllər əmək fəaliyyəti olub olmadığı müəyyənləşdirilmiş və aşağıdakı nəticələr əldə edilmişdir:




Qrafikdəki nəticələrə əsasən respondentlərin 31%-inin əvvəllər əmək fəaliyyəti olduğu qeyd edilmiş və yuxarıda qeyd edilən peşələr üzrə işləmişdir. Ümumilikdə sayca ən çox olan əmək fəaliyyətlərində işləyən respondentlərin sayı 76 nəfər olub, ümumi işləyənlərin 53%-ni təşkil edir. İlk beşlikdə gələn fəaliyyətlər arasında birinci sırada fəhləlik, ikinci sırada qadın bərbəri, üçüncü sırada müəllimlik, dördüncü sırada satıcılıq, beşinci sırada xadiməlik gəlir. Digər diaqramdakı nəticələrdən fərqli olaraq ofisiantlıq iş fəaliyyətində ilk beşliyə düşməmiş, lakin 6-cı sırada gəlir. Ümumilikdə, əmək fəaliyyəti ilə bağlı 31 məşğulluq təsnifatı qeyd edilmişdir. Ümumilikdə, digər məşğulluq təsnifatlarına nəzərən bu fəaliyyət istiqamətləri üzrə gəlir səviyyəsi çox aşağı olur. Belə nəticəyə gəlmək mümkündür ki, insan alveri qurbanlarının böyük bir hissəsi nisbətən aşağı gəlirli əhali qrupunu əhatə edir.

Respondentlərin gəlir səviyyəsinə də nəzər yetirdikdə belə bir nəticədən əmin olmaq mümkündür. Bütün respondentlər üzrə əldə edilən məlumatlar əsasında əldə edilən nəticəyə əsasən respondentlər arasında əvvəlki əmək fəaliyyəti ilə bağlı

maksimum gəlir 600 manata yaxın olmuşdur. Ümumilikdə respondentlərin ortalama gəlir səviyyəsi 311.4 manat, median dəyər 250 manat olmuşdur. Bakı şəhərində bu göstərici 331.6 manat, regionlarda isə bu göstərici 289.7 manat olmuşdur. Nəzərə almaq lazımdır ki, Dövlət Statistika Komitəsinin rəqəmlərinə əsasən ölkədə orta aylıq əmək haqqı 720-750 manat arasında dəyişməkdədir ki, bu göstərici respondentlərin göstəricilərindən iki dəfə çoxdur.  Belə nəticəyə gəlmək mümkündür ki, insan alveri qurbanları və risk qrupları aşağı gəlirli şəxslərdən formalaşır.

İnsan alveri qurbanlarının da daxil olduğu risk qruplarının xüsusiyyətlərindən biri də keçmişdəki ailə qayğısının olub olmaması ilə əlaqədərdir. Müəyyən edilmişdir ki, respondentlərin 4.3%-i valideyn himayəsindən məhrum olmuş şəxslər olub. Bu respublika üzrə ümumi əhali göstəricisindən xeyli yüksəkdir.

Respondentlərin ailə vəziyyətində ciddi problemlər mövcuddur. Xüsusilə uğursuz nikahlar, ailədə boşanmaların sayının çox olması insan alveri risklərini daha da artırmaqdadır. Ailədəki normal münasibətlər, ailə üzvlərinin bir birinə dəstəyi bu riski azaltmış olmalıydı. Təcrübələr göstərir ki, uğursuz nikahlar və boşanmalarının sayının artması insan alverinə münbit şərait yaradır. Aşağıdakı diaqramın nəticələri bu yanaşmanı dəstəkləyən göstəricidir:




Diaqramın nəticələrindən belə qənatə gəlmək mümkündür ki, evli olanlarla subay olanlar arasındakı fərq çox cüzidir. Respondentlərin sadəcə 37%-nin evli statusunda olduğu, habelə boşanmaların da 34% kimi yüksək nəticə göstərdiyini müşahidə etmək mümkündür. Eyni zamanda 7% qeyri rəsmi nikah da respublika üzrə analoji göstəricidən çox yüksək olduğu müəyyənləşmişdir. Respondenlərdən yalnız 14%-nin subay olduğu müəyyənləşmişdir. Evli olanların bir çoxu isə kişi cinsinə malik olan şəxslərdir. Belə qənaətə gəlmək mümkündür ki, ailə bağlarının zəif olduğu yerlərdə insan alveri üçün güclü zəmin yaranır.




Diaqrama nəzər yetirdikdə boşanan şəxslərin təqribən 60%-nin nikah müddəti 5 ilə qədər davam etmişdir. Bunların arasında 16%-ə qədərinin nikah müddəti 1 ilə qədər davam etmişdir. Bu nəticələrə əsasən demək mümkündür ki, insan alveri qurbanlarının risk qrupuna daxil olanlarda nikah müddəti nisbətən daha qısa müddətlidir. Ümumilikdə boşanan respondentlər arasında nikah müddəti üzrə ortalama dəyər təxminən 3 il 7 aydır. Eyni zamanda respondentlər arasında ailə üzvlərindən ən az birini itirməsi, natamam ailə statusunda olması, bir qisminin boşanmış olması, bir qisminin lap əvvəldən də valideyn himayəsindən mərhum olması onların insan alverinin hədəfinə çevrilməsinə daha asanlıqla gətirmişdir. Respondenlərdən yalnız 49,78%-nin bütün yaxın qohumlarının həyatda olduğunu, qeyd edilən qrupdan isə 16,7%-nin qohumlar tərəfindən imtina edildiyi müəyyən edilmişdir.

Respondentləri yuxarıda qeyd edilən sosial-demoqrafik faktorlar baxımından analiz etdikdə onların əhalinin digər hissəsinə nəzərən daha az təminatlı, nisbətən asosial və daha əlverişsiz vəziyyətdə olduqları müəyyən edilmişdir.

## İKİNCİ BÖLMƏ. İnsan alveri qurbanlarının onları əhatə edən sosial çevrəsi ilə münasibətləri

Bu bölmə insan alveri qurbanlarının və riskli qrupların onları əhadə edən şəxslərlə münasibətləri, habelə həyati əhəmiyyətli qərarların verilməsində onları əhatə edən yaxın qohumları və şəxslərin təsiri və bu kontekstdə, yəni qərarvermə prosesində fərdi azadlıqlarını və özünüifadə qabiliyyətini necə həyata keçirməsi ilə bağlı məsələləri əhatə etmişdir. İlk növbədə şəxslərdən insan alveri qurbanı olmamışdan əvvəlki dövrdlərdə ailə üzvlərinin ona qarşı rəftarı və münasibətləri ilə əlaqəli olmuşdur. Burada ailə üzvləri arasında ata, ana, qardaş, bacı və evlidirsə həyat yoldaşı ilə münasibətlər 5 dərəcəli Likert ölçüsü ilə dəyərləndirilmiş, *çox yaxşı* münasibət 5 balla, *çox pis* münasibət isə 1 bal olmaqla yaxşı, orta və pis münasibətlər isə müvafiq olaraq 4, 3, və 2 balla qiymətləndirilmişdir. Riyazi modelləşdirmə əsasında hər bir komponent üzrə ortalama aşağıdakı şəkildə hesablanmışdır: Hər bir cavab üzrə respondentlərin sayının cavab üzrə müəyyənləşmiş bala hasillərinin cəminin ümumi cavablayan şəxslərin nisbəti ilə ölçülmüşdür. *Nümunə kimi çox üzrə ((çox yaxşı-20 nəfər*5)+(yaxşı-15 nəfər*4)+ (orta-25 nəfər*3)+ (pis 30 nəfər*2)+ (çox pis-40 nəfər*1)/Ümumi cavablayanların sayı. Beləliklə (100+60+75+60+40)/(20+15+25+30+40)=335/130=2.57.*




| | Ağcabədi | Bakı (UADM) | Bakı - sığınacaq | Bakı-AUB | Gəncə | Mingəçevir | Şirvan | Xaçmaz | Yevlax | Ümumi orta dəyər |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ata | 3.56 | 4.17 | 3.73 | 4.44 | 2.87 | 3.57 | 2.35 | 4.05 | 2.63 | 3.42 |
| ana | 3.89 | 4.90 | 3.79 | 3.65 | 4.09 | 4.39 | 4.33 | 4.35 | 3.42 | 4.08 |
| qardaş | 3.49 | 3.63 | 3.00 | 4.25 | 2.75 | 3.62 | 2.70 | 3.67 | 2.96 | 3.34 |
| bacı | 3.75 | 3.50 | 4.00 | 4.00 | 3.93 | 3.69 | 3.68 | 3.70 | 3.38 | 3.72 |
| həyat yoldaşı | 2.67 | 3.30 | 1.47 | 0.00 | 2.17 | 2.51 | 2.33 | 3.07 | 2.31 | 2.45 |

Diaqramlardakı ümumi orta dəyərlərin nəticələrinə əsasən insan alveri qurbanlarının ailə üzvləri arasında ən yaxşı münasibət ana ilə olmuşdur. İkinci sırada bacı ilə münasibətlər, üçüncü sırada ata, dördüncü sırada qardaş və ən axırıncı yerdə həyat yoldaşı (keçmiş həyat yoldaşı) gəlir. Yəni, belə nəticəyə gəlmək mümkündür ki, ailə üzvləri ilə münasibətdə kişi cinsinə mənsub üzvlər arasındakı münasibət qadın

cinsinə mənsub üzvlərə görə daha pis vəziyyətdədir. İlk dörd yerdə gələn yaxın qohumlarla münasibətdəki dəyərlər bir birinə yaxın olsa da həyat yoldaşı ilə münasibət digərlərindən xeyli fərqlənir və çox aşağıdır. Ata ilə münasibətdə regionlar arasında fərq nəzərə çarpacaq dərəcədədir. Ata ilə münasibətdə ən aşağı göstərici Şirvan (2.35), Yevlax (2.63), Gəncə (2.87) şəhərlərində müşahidə edilmişdir. Bakı şəhəri üzrə göstəricilər isə daha yüksəkdir. Ümumilikdə bütün yaxın qohumlar üzrə münasibətlərdə ən aşağı göstərici Yevlax şəhərində müşahidə edilmişdir. Anaya münasibətdə Yevlax və Ağcabədi rayonu xaricində digərlərində dəyərlər bir birinə yaxın və yüksəkdir. Həyat yoldaşı ilə münasibətin nisbətən daha pis olması gözlənilən nəticədir. Belə ki, respondentlərin nəzərə çarpacaq hissəsinin məişət zorakılığına məruz qalması bu nəticənin meydana çıxmasına səbəb olmuşdur.

Bununla yanaşı digər insanların, yəni qurbanları əhatə edən sosial çevrənin onlara münasibəti yuxarıda qeyd edilən rəqəmlər qədər yüksək deyil. Bu münasibəti öyrənmək üçün yenə 5 dərəcəli Likert ölçüsü ilə respondentlərin cavabları əsasında riyazi modellə müəyyənləşmişdir. Mərhəmətli davranış-5, Tolerant davranış-4, Laqeyd yanaşma-3, Hörmətsiz yanaşma-2 və Aqressiv yanaşma isə 1 balla qiymətləndirilmişdir. Yenə əvvəlki diaqramda olduğu kimi hər bir cavab üzrə respondentlərin sayının cavab üzrə müəyyənləşmiş bala hasillərinin cəminin ümumi cavablayan şəxslərin nisbəti ilə ölçülmüşdür və aşağıdakı diaqram üzrə nəticələr əldə edilmişdir:




Ümumilikdə əldə edilən nəticələr 1.98-1.74 arasında dəyişir, bu isə insan alveri qurbanlarına onları əhatə edən sosial çevrə tərəfindən hörmətsiz yanaşmanın olduğunu müəyyənləşdirməyə imkan yaradır.

İnsan alveri qurbanlarının sosial çevrə ilə münasibətlərini müəyyənləşdirən əsas komponentlərdən biri də qərar vermə prosesində digər şəxslərin onların qərarlarına təsir etməsi ilə bağlıdır. Qurbanların öz həyatı ilə bağlı mühüm qərarlarda müstəqil qərar vermə qabiliyyətinə mənfi təsir etməsi eyni zamanda insan alveri üçün potensial risk də formalaşdırır. Bir çox hallarda müstəqil qərar verməməsi və ya öz həyatı ilə bağlı digər şəxslərin təsiri insan alveri üçün münbit şərait yaradır. Bu

indikatorlardan biri də məhz qurbanlar nikaha daxil olma qərarında onların nə dərəcədə müstəqil davranması və ya ailə üzvlərinin təsirinin çəkisidir. Təcrübə göstərir ki, insan alveri qurbanları arasında boşanmış şəxslər və uğursuz ailələr arasında daha geniş yayılmış, ailə dəstəyinin düzgün istiqamətdə işləməməsi onların qurbana çevrilməsinə zəmin yaradır. Respondentlərdən nikaha daxil olarkən ailə üzvlərinin izdivacın həyata keçirilməsində rolu öyrənilmişdir. Qurbanlardan birinci dərəcəli yaxın qohumlarının (ata, ana, bacı və qardaş, həyat yoldaşı) rolu 5 dərəcəli Likert ölçüsü ilə öyrənilmişdir. Çox əhəmiyyətli-5 bal, əhəmiyyətli-4 bal, orta dərəcədə əhəmiyyətli-3 bal, əhəmiyyətsiz-2 bal, çox əhəmiyyətsiz-1 bal ilə dəyərləndirilmişdir. Yuxarıda son gələn 2 sualda olduğu kimi hər bir cavab üzrə respondentlərin sayının cavab üzrə müəyyənləşmiş bala hasillərinin cəminin ümumi cavablayan şəxslərin nisbəti ilə ölçülmüşdür və aşağıdakı diaqram üzrə nəticələrə əldə edilmişdir:

Nikaha daxil olma qərarında ailə üzvlərinin rolu




| | Ağcabədi | Bakı (UADM) | Bakı - sığınacaq | Bakı-AUB | Gəncə | Mingəçevir | Şirvan | Xaçmaz | Yevlax | Ümumi ortalam |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| özüm | 3.19 | 3.00 | 2.17 | 4.44 | 1.94 | 2.53 | 1.60 | 2.24 | 3.00 | 2.60 |
| atam | 3.33 | 4.52 | 4.28 | 3.65 | 4.00 | 3.41 | 4.40 | 4.56 | 3.42 | 3.98 |
| anam | 2.47 | 3.03 | 2.66 | 2.85 | 2.22 | 2.76 | 2.67 | 3.24 | 2.27 | 2.67 |
| qardaşım | 2.88 | 3.63 | 4.32 | 4.25 | 3.88 | 3.00 | 4.00 | 4.40 | 3.27 | 3.52 |
| bacım | 2.42 | 3.17 | 3.23 | 4.00 | 2.28 | 2.50 | 3.00 | 3.00 | 1.79 | 2.66 |
| həyat yoldaşım | 4.03 | 4.00 | 3.70 | 4.00 | 4.39 | 3.61 | 4.72 | 3.00 | 4.30 | 4.06 |

özüm atam anam qardaşım bacım həyat yoldaşım

Diaqramdakı ümumi nəticələrə əsasən nikaha daxil olmada ümumi ortalama nəticəyə əsasın ən az rolu qurbanın özü (2.6 bal-təxminən orta dərəcədən bir qədər aşağı) oynamışdır. Ən böyük təsir isə gələcək həyat yoldaşının rolu olmuşdur. İkinci sırada isə gözlənildiyi kimi ata (3.98) və daha sonra qardaş (3.52) böyük rol oynamaqdadır. Qadın cinsinə mənsub olan ana və bacı isə daha az təsirə malikdir. Bu göstəricilərdən belə nəticəyə gəlmək mümkündür ki, nikaha daxil olma qərarlarının verilməsində kişi cinsinə mənsub insanların rolu qadınlara nəzərən daha yüksəkdir və bu fərqlər riyazi (statistik) mənada nəzərə çarpacaq səviyyədədir. Digər regionlarda da kiçik istisnalar olmaq şərti ilə sıralamalar eynidir. Nikaha daxil olmada şəxsin özünün rolunun ən yüksək olduğu nəticə Bakı-AUB-da (4.44) və ən

aşağı nəticə isə Şirvan şəhərində qeydə alınmışdır. Analoji göstərici digər şəxslərin rolu haqqında aşağıdakı kimidir:

- Ata: ən yüksək nəticə Xaçmazda (4.56) və ən aşağı nəticə Ağcabədidə (3.33)
- Ana: ən yüksək nəticə Xaçmazda (3.24) və ən aşağı nəticə Gəncədə (2.22)
- Qardaş: ən yüksək nəticə Xaçmazda (4.4) və ən aşağı nəticə Ağcabədidə (2.88)
- Bacı: ən yüksək nəticə Bakı –AUB-da (4.00) və ən aşağı nəticə Yevlaxda (2.22)
- Həyat yoldaşı: ən yüksək nəticə Şirvanda(4.72) və ən aşağı nəticə Xaçmazda (2.22) qeydə alınmışdır.

Əlbəttə ki, bu göstəricilər təkbaşına insan alveri qurbanına çevrilməsinin səbəbi olma baxımından o qədər təsirli və mənalı bir göstərici ola bilməz. Lakin, insan alveri qurbanı olmayan digər əhali qrupu (statistik təhlil baxımından populyasiya) üçün də bu cür göstəricilərin olması və fərq testləri ilə statistik mənada nəzərə çarpacaq fərqin olub olmamasının təhlili baxımından əhəmiyyətlidir və gələcək təhlillərdə bu nəzərə alına bilər. Əgər digər populyasiyada da bu nəticələr eyni olsa, o zaman nikaha daxil olmadakı qəraralma prosesində qurbanların müstəqil qərar verib verməməsi ilə insan alveri qurbanı olma arasında əlaqə inkar ediləcək.

Qurbanların ətrafındakı insanlar, xüsusilə ailə üzvləri ilə münasibətlərini müəyyənləşdirən əsas göstəricilərdən biri də məişət zorakılığı zəminində baş verən hadisələrdir. Tədqiqatda bunu ölçmək üçün məişət zorakılığını obyektiv ölçəcək tipik hadisələr sıralanaraq bu hadisələrin onların həyatlarında baş verib verməməsi soruşulmuşdur. Şübhəsiz ki, bu hadisələr özəl həyatı əhatə etdiyi üçün latent formada olduğu bilinir və bəzilərinin baş verən məişət zorakılığı hallarını qeyd etməməsi normaldır. Bu baxımdan əldə edilən cavablarda görünən miqyas real həyatdan daha aşağı olma ehtimalı böyükdür. Ümumilikdə 379 nəfər (böyük əksəriyyəti qadın) 995 cavab işarələmişdir və nəticələr aşağıdakı diaqramda göstərilmişdir.




Diaqramda qeyd edilən faiz göstəriciləri bu suala cavab verən şəxslərin nisbəti ilə ölçülmüşdür. Ümumilikdə ilk üçlükdə gələn məişət zorakılığı tipləri hədələmə

(63.06%), döymə (49.08%) və təhqir etmə (34.56%) olmuşdur. Daha sonra növbəti sıralarda isə xəyanət etmə, işləməyə qadağa, evin xərclərini qarşılmamaq, əldə edilən qazancın əlindən alınması halları müəyyənləşdirilmişdir. Ümumi cavablarla nisbətdə isə ilk beşlikdə gələn tipik hadisələr ümumi cavabların 69.65%-ni təşkil edir. Qeyd etdiyimiz kimi məişət zorakılığı latent formada həyata keçirildiyi üçün burada göstəricilər reallıqdan daha aşağı rəqəmlərdir. Eyni zamanda burada respondentin özəl həyatla bağlı suallardan çəkinməsi və bəyan etməməsi statistikaya təsir edən rəqəmdir. Bununla yanaşı ilk üçlükdə gələn tipik hadisələrlə bağlı rəqəmlər kifayət qədər yüksək rəqəmlərdir. Bu baxımdan insan alveri və məişət zorakılığına məruz qalma arasında güclü əlaqənin olduğunu söyləmək mümkündür.

## ÜÇÜNCÜ BÖLMƏ: İnsan alveri qurbanının “qurbana” çevrilmə prosesi və səbəbləri

Bu bölmədə insan alveri qurbanlarının qurbana çevrilmə prosesinin motivlərini və kimlər tərəfindən həyata keçirildiyi həm keyfiyyət həm də kəmiyyət tədqiqatları ilə müəyyənləşdirilmişdir. Kəmiyyət tədqiqatları hissəsində şəxslər insan alveri qurbanlarına çevrilməmişdən əvvəl alternativ işə düzəlmə cəhdləri və ya ailə üzvləri tərəfindən yönləndirmə, motivlər fərdi qaydada öyrənilmişdir. İkinci bir məqam isə əmək bacarıqları olduğu halda niyə məhz işə düzəlməyə cəhd etmədiyi və insan alveri qurbanına çevrilməsinin motivləri incələnmişdir. Əldə edilən cavablar belə deməyə imkan verir ki, əksər hadisələrdə sosial-iqtisadi vəziyyət, sosial müdafiə sistemindən bəhrələnməmək kimi məqamlar insan alverinin əsas səbəblərindən biridir. Eyni zamanda respondentlərin çox az bir hissəsinin peşə bacarıqlarının olmaması onların iş axtarışına mənfi təsir etmişdir. Müəyyən peşə bacarıqları olan şəxslərdəki peşələr üzrə işlər isə daha aşağı gəlirli işləri tapmağa imkan verir və ailələrin yetərli şəkildə tələbatını ödəmir. Ümumilikdə, respondentlərdən 37 nəfər cinsi istismara məruz qalıb ki, bunlardan 17 nəfəri həyat yoldaşı narkotik istifadəçisi olduğuna görə və narkotik tələbatını ödəmək məqsədi ilə həyat yoldaşını cinsi istismara məcbur etmişdir. 11 nəfər işlədikdən sonra maaş almayan şəxslər olmuşdur. 15 nəfər hansı işin təklif edildiyini konkret müəyyən etmək mümkün olmasa da bəzilərinə təklif edilən işlər kafedə xadimə, gözəllik salonlarında və internet kafelərdə adi işçi kimi işlər təklif olunmuşdur. Ümumilikdə, 12 nəfərə narkotik satışı təklif olunub. Bir neçə nəfərə kafedə iş təklif olunub və orada işlədikdən sonra cinsi istismara məruz qalmışdır. Məcburi əməyə cəlb edildiyini qeyd edənlər də kifayət qədər çoxdur. Tədqiqatdan ən böyük risk qruplarından biri isə internat məktəblərində 18 yaşını tamamladıqdan sonra internat məktəbini tərk edən insanlardır. Tədqiqatda məlum olmuşdur ki, bu cür statusda olan 4 nəfər internat məktəbini tərk etdikdən sonra nəinki işlə, hətta evi olmadıqları üçün 3-ü cinsi istismara məruz qalmış, 1 nəfər isə narkotik ticarəti ilə məşğul olmuşdur. Bu cür nümunələr daha çox yetərli səviyyədə maddi gəlirin olmaması ilə bağlı motivlərdir. Bununla yanaşı insan alverinin əsas səbəblərindən biri isə fərdin və ailəsinin istehlak xərclərinin müəyyən səbəblərdən daha yüksək olması və bu xərclərdə ekstremal halların daha çox olması ilə də bağlı olduğu müəyyənləşmişdir. Bu halları aşağıdakı kimi təsnifatlaşdırmaq və ümumiləşdirmək mümkündür:

- 42 nəfərin himayəsində xüsusi qayğıya ehtiyacı olan şəxslər (bunlar arasında uşaqların payı çoxdur) olmuşdur ki, onların tibbi və sosial xərcləri digər ailələrə nəzərən qat-qat yüksəkdir. Mövcud səhiyyə sistemi və onun maliyyələşmə (sığorta) mexanizmlərinin effektiv işləməməsi əsas səbəblərdən biridir. Bir çox xəstəliklərin müalicəsi və əlilliyi olan şəxslərin reabilitasiya xərclərini qarşılamaq müvafiq ailələr üçün əlçatımlı deyil.
- 31 nəfər aliment pulunu almadıqları və başqa yerdən maliyyə mənbəyi, habelə əmək bazarında layiqli əməklə təmin edilməsi üçün uyğun peşə bacarıq və bilikləri olmadığı üçün insan alverinin qurbanı olublar.
- 16 nəfər yığılmış aliment pulunu qarşı tərəfə ödəmə qabiliyyətində olmadığını və həbsdən qorxduğu üçün qeyri-qanuni əmək münasibətlərinə daxil olmuşdur.
- 10 nəfər maliyyə-kredit təşkilatlarında borc ala bilmədiyi üçün özəl şəxslərdən sələmə pul almış və bunlardan ikisinin borclu olduğu şəxslərin fermasında məcburi əməyə cəlb edildiyi müəyyən edilmişdir.
- 17 nəfər nakrotik ehtiyacını qarşılamaq məqsədi ilə həyat yoldaşlarını cinsi istismara vadar etmişdir.
- 53 nəfər daha yaxşı rifah səviyyəsi təmin etmək məqsədi ilə insan alveri qurbanı olmasını öz istəyi ilə əlaqələnədirmişdir.

Bəzi hallarda isə bahalı müalicə tələb edən səhiyyə xidmətləri və sosial xidmətləri qarşılamaq motivləri də tədqiqatda insan alverinin əsas motivləri kimi qarşımıza çıxmışdır.

Ümumilikdə belə nəticəyə gəlmək mümkündür ki, bir çox hallarda səhiyyə və sosial ehtiyaclarda yaranan böyük və ekstremal xərclərin qarşılanmasının hərkəs üçün əlçatan olmaması insan alverinə münbit şərait yaradır.

İnsan alveri ilə bağlı təkliflərin kim tərəfindən gəlməsi ilə bağlı suala isə aşağıdakı kimi cavab verilmişdir:



Dairədəki bölgüdən göründüyü kimi insan alveri üçün təkliflər daha çox tanışları tərəfindən təklif edilmişdir. İkinci sırada 28%-lə digər şəxslər tərəfindən təklif olunduğu müəyyən edilmişdir. Qeyd edilən digər şəxslər arasında təxminən 70%-i ikinci dərəcəli qohumlar yer almaqdadır. 17%-i isə bu təkliflərin dostlardan gəldiyini qeyd edib. Respondentlərin cəmi 3% insan alveri ilə bağlı təkliflərin internetdən tanımadığı şəxslərdən aldığını qeyd etmişdir. Beləliklə bu nəticəyə gəlmək mümkündür ki, insan alverinə cəlb edilmə prosesində qurbanlar hər zaman tanıdığı şəxslər tərəfindən cəlb edilir. Ailə üzvləri cəmi 6% təşkil etsə də buradakı əsas motiv narkomaniyaya qurşanmış şəxslərin öz həyat yoldaşlarını cinsi istismara məcbur etməsidir. Əgər bu motiv olmasa əldə edilən nəticə qat-qat aşağı olacaqdı. Təklif qəbul edilərkən ailə üzvlərinin və onu əhatə edən, dost, tanışların reaksiyası ilə də bağlı məqamlar da öyrənilmişdir. Qeyd edilən təklifə kimlərin qarşı çıxması və ya kimlərin məsləhət verməsi müəyyənləşdirilmişdir. Respondentlərə insan alverinin predmeti olan təklif gəldikdə qərarvermə prosesində kiminlə məsləhətləşdiyini və məsləhətləşmə zamanı kimlərin rədd cavabı verilməsi yoxlanılmışdır. Ümumilikdə, suallar qapalı tipli suallar olub məsləhətləşilən şəxslər əvvəlcədən müəyyənləşdirilmişdir. Bu şəxslər - ata, ana, qardaş, bacı, həyat yoldaşı, dostlar və tanışlar olmuşdur. Məsləhətləşmə üçün müraciət edilən şəxslərin hər biri ilə ayrı ayrılıqda məsləhətləşməsi və onlardan hansı hissəsi məsləhətləşmədə mənfi cavab verməsi göstərilmişdir. Bununla bağlı nəticələr aşağıdakı qrafiklərdə göstərilmişdir.




Qrafikdən göründüyü kimi məsləhətə getdikləri şəxslərlə təklifə rədd cavabı verənlər arasında hər bir halda fərqlər mövcuddur. Lakin bu fərqlər hər bir cavaba görə dəyişməkdədir. Nəticələrə görə, bütün hallarda qardaşlar təklifə laqeyd yanaşmayıb qurbanlara bu təklifin rədd edilməsini məsləhət etmişdir. Atalarda rədd cavabları kifayət qədər çox olub və buna görə fərq cüzidir. Məsləhətləşilən şəxslərlə rədd cavabı arasındakı ən böyük fərqlər dostlar və tanışlar arasında müşahidə edilmişdir. Daha sonra isə böyük fərq həyat yoldaşı cavabında da müşahidə edilmişdir. Ailə

üzvləri arasında nisbətən loyal yanaşan isə ana olmuşdur. Ümumilikdə isə ailə üzvləri (həyat yoldaşı xaric) insan alverinə predmet olan təklifin rədd edilməsində digər şəxslərə nəzərən daha fəal rol oynamışdır. Bu baxımdan insan alverinin qarşısının alınmasında ailə institutu və ailədaxili münasibətlərin sağlam təməllər üzərində qurulması çox böyük rola malikdir.

İnsan alveri qurbanları öz problemlərini həll etmək üçün müraciət etdikləri qurumlar və onlar haqqındakı təəssüratlar da bu sahədə mübarizənin güclənməsi baxımından ən vacib elementlərdən biridir. Ümumilikdə, insan alveri qurbanları problemlə bağlı aşağıdakı qurumlara müraciət etmişdir:




| | Hüquq-mühafizə orqanlarına | Sosial Xidmət mərkəzlərinə | 102 xidmət mərkəzinə | AUQPDK | Yerli İcra Hakimiyyəti | vətəndaş cəmiyyəti təşkilatlarına | DSMF | Məhkəmə orqanlarına | Ərazi Məşğulluq Mərkəzi | Bələdiyyələr | vəkillər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ümumi cavablarda payı | 28.31 | 17.47 | 12.95 | 12.65 | 11.45 | 8.43 | 3.61 | 3.31 | 1.20 | 0.30 | 0.30 |

Ümumilikdə, qurbanların 60%-dən çoxu hüquq-mühafizə orqanlarına və sosial xidmətlər mərkəzlərinə müraciət etmişdir. Müraciət edilən qurumların pay bölgüsü qeyri-bərabər paylanılmışdır. Bu göstəriciyə təsir edən əsas faktor müraciətin səbəbi, qurumların problemi həll edə bilmə qabiliyyəti (səlahiyyətləri və imkanları), yaradılmış imic, qurumların səlahiyyətlərindən vətəndaşların məlumatlı olması və gözləntiləri daha çox təsir edir. Gələcək illərdə digər əlaqədar qurumları insan alveri ilə bağlı üzərlərinə düşən səlahiyyətlər və imkanları haqqında vətəndaşları məlumatlandırmaları və imicinin yüksəldilməsi yuxarıda qeyd edilən mənzərəni nəzərə çarpacaq dərəcədə dəyişdirə bilər.

Respondentlərdən dövlət qurumlarından neqativ cavabların verilməsində aşağıdakı arqumentlərin nə dərəcədə təsirli olması da öyrənilmişdir. Hər bir faktorun təsiri və rolu əhəmiyyətlilik dərəcəsinə görə 5 dərəcəli Likert ölçüsü ilə dəyərləndirilmiş və aşağıdakı nəticələr əldə edilmişdir.

a) Problemin həllində səlahiyyətlərinin olmaması-3.72
b) Qurumun maddi vəsaitinin yetərli olmaması-2.14
c) Laqeydlik-3.92
d) Kömək üçün prosedurların çox çətin və ağır olması-2.73
e) Vəzifə səlahiyyətlərinin lazımınca yerinə yetirilməməsi-4.25

Qeyd etmək lazımdır ki, respondentlərdən demək olar ki, heç kim, problemini KİV vasitəsi ilə ictimailəşdirməmiş və hər hansı bir xeyriyyə aksiyaları vasitəsi ilə problemlərini həll etməyə cəhd etməmişdir.

## DÖRDÜNCÜ BÖLMƏ: İnsan alverinə qarşı mübarizə haqqında qurbanın qavrama və təsəvvürləri

Bu bölmədə insan alveri qurbanlarının insan alverinə qarşı mübarizə yolları haqqında düşüncələri əks olunmaqdadır. Onların insan alveri ilə bağlı məlumatlılıq səviyyəsi, dövlət qurumlarının hansı fəaliyyət istiqamətləri üzrə preventetiv fəaliyyətlərinin insan alveri ilə mübarizədə daha effektiv olacağı haqqında anlayışları öyrənilmişdir. Onların bu sahədə empatiya hissi ilə simulyasiya qurmaq qabiliyyəti digər əhali qrupuna nəzərən daha güclü olacaq. Çünki, "*əgər bu olsaydı mən bu yola düşməzdim*" sualı ilə simulyasiya edərək hansı tədbirlərin onların həyatını dəyişdirəcəyini və qurban olmayacağını dərk etməsinə daha böyük imkan yaradacağını biləcəklər.

Bu məsələlərlə bağlı ilk sual onların yaşadığı məntəqədə insan alveri ilə bağlı əhalinin məlumatlılıq səviyyəsi ilə bağlı olmuşdur. Məlumatlılıq səviyyəsi yenə çox məlumatlılıqdan tamamilə məlumatsız səviyyəsinə qədər olmaq şərti ilə 5 dərəcəli Likert ölçüsü ilə ölçülmüşdür. Ölçmədə çox məlumatlılıq 5 , məlumatlıdır 4, orta dərəcədə məlumatlıdır 3, az məlumatlıdır 2, tamamilə məlumatsız 1 bal ilə ölçülmüşdür. Bu sual ilə bağlı indeks, hər bir cavaba verilən şəxslərin sayının həmin cavabın balına hasillərinin cəminin cavab verənlərin sayına nisbəti ilə ölçülmüşdür. Bu ölçmələr nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir.




Qrafikdəki nəticələrə görə Bakı-(AUB) digələrindən fərqli olaraq orta dərəcəyə (2.81) nisbətən yaxın olub məlumatlılıq səviyyəsi orta səviyyədə, Ağcabədi, Bakı (Təmiz Dünya İctimai Birliyi), ümumi orta dəyər, Gəncə və Yevlax az məlumatlılıq səviyyəsinə nisbətən yaxın, Mingəçevir, Xaçmaz, Şirvan və Bakı (UADM) isə və

Ağcabədidə cavablara əsasən əhalinin məlumatlılıq səviyyəsi tam məlumatsızlığa daha yaxındır. Ümumi nəticə isə 1.72, yəni əhalinin insan alveri ilə bağlı məlumatlılıq səviyyəsi aşağıdır.

İkinci bir məsələ isə qadın və uşaqların ailədaxili münasibətlərdə problem səbəbindən ailədən kənara, xaricə və ya digər şəhərə köçməsinə münasibətlə bağlıdır. Bu münasibətin ölçülməsində də 5 dərəcəli Likert ölçüsündən istifadə edilmiş, cavablardan anlayışlı-5 bal, tolerant-4 bal, laqeyd-3 bal, hörmətsiz-2 bal, aqressiv-1 bal ilə qiymətləndirilmişdir. Hesablama qaydasında hər bir cavab üzrə şəxslərin sayının həmin cavabın balına hasillərinin cəminin ümumi cavablara olan nisbəti ilə ölçülmüşdür və aşağıdakı nəticələr əldə edilmişdir.




Diaqramdakı nəticələrə əsasən yenə ən yüksək nəticə Bakı (UADM)-da 3.4 balla müəyyənləşmişdir. Burada münasibət təxminən laqeyd yanaşmadan yüksək tolerant yanaşmadan aşağı səviyyədədir. Ağcabədi (2.54), Bakı (AUB)-2.44 hörmətsiz yanaşmadan bir qədər yüksək, lakin, laqeyd yanaşmadan ciddi dərəcədə aşağı səviyyədədir. Digər regionlarda isə müşahidə edildiyi kimi hörmətsiz səviyyədədir. Nisbətən aqressiv münasibətə yaxın olan regionlar Gəncə, Şirvan və Xaçmaz şəhərlərində olmuşdur. Ümumi orta nəticə isə 2.1 ilə hörmətsiz münasibətə çox yaxındır.

Qurbanlara insan alverinin azaldılması ilə bağlı hansı tədbirlərin daha əhəmiyyətli olduğu ilə bağlı da sual verilmişdir. Sualda 10 cavab verilmiş və respondenlərdən bunlar arasında ən vacib olanların istənilən sayda seçilməsi xahiş edilmişdir. Ümumilikdə respondentlər arasında 2443 cavab (tədbir) işarələnmişdir. Bu tədbirlərin bəziləri mövcud siyasət əsasında yanaşmaların təkmilləşdirilməsini, bəziləri isə siyasətin təkmilləşdirilməsi və ya mexanizmlərin təkmilləşdirilməsi ilə bağlı olmuşdur. Cavablar aşağıdakı şəkildə formalaşmışdır:




Bu qrafikin nəticələrinə əsasın birinci sırada gələn tədbir mövcud siyasət daxilində yanaşmaların təkmilləşdirilməsini gücləndirən tədbir olan “dövlət qurumlarının həssas qruplara daha diqqətli davranması” tədbiri öndə gəlməkdədir. İkinci sırada gələn tədbir daha çox preventiv xarakterli tədbir olan insan alverinə qarşı mübarizədə “əhalinin maarifləndirmə tədbirlərini gücləndirmək” tədbiridir. Üçüncü sırada məşğulluq imkanlarının artırılması ilə bağlı mexanizmlərin təkmilləşdirilməsi tədbiri gəlir. Qurbanla keyfiyyətli təhsil və peşə bacarıqlarının təkmilləşdirilməsi məsələlərinə orta sırada yer veriblər. Daha çox qeyri-hökumət təşkilatlarını maraqlandıran məqamlardan biri də budur ki, xeyriyyə təşkilatlarının gücləndirilməsi tədbirini ən az effektiv tədbir kimi hesab edirlər. Bu nəticələr əsasən ondan irəli gəlir ki, qurbanlar daha dayanıqlı və səlahiyyət sahibi olan şəxslərdən gözləntiləri daha çoxdur. İlk sırada (beşlikdə) yer alan tədbirlərdən iş imkanlarının gücləndirilməsi, dövlət qurumlarının yanaşmalarını daha çox təkmilləşdirmək, sosial müdafiə imkanlarını gücləndirmək və təhsilin keyfiyyətini artırmaq kimi tədbirlər daha çox

dövlət xidmətlərini əhatə edir və bunların böyük vəsait tələb edən tədbirlər olduğunu unutmamalıyıq.

Bu bölmədə ən maraqlı məqamlardan biri isə hansı imkanlar olsaydı, insan alverinin qurbanı olmazdı, sualına olan cavablarla bağlı idi. Bu sualın məqsədi də dolayı yolla hansı imkanların vaxtında və keyfiyyətli olmasıyla insan alveri qurbanlarının sayını azaltmaq olardı sualına cavab tapmaq idi. Tədqiqatın fərziyyələrinə görə bu suala şəxslər o imkanlara əhəmiyyət verib ki, həmin imkanların olmaması onların insan alveri qurbanına çevrilməsinə səbəb olmuşdur. Eyni zamanda bu sualın cavabı insan alverinə səbəb olan imkansızlığı da göstərir. Respondentlər üçün aşağıdakı 10 altrenativ təqdim edilmişdir:

1. Keyfiyyətli təhsil və peşə hazırlığına əlçatanlıq
2. İş imkanlarına əlçatanlıq
3. Dövlətin qadın və uşaqlarla bağlı sosial tədbirlərinin güclü olması
4. Məişət zorakılığına məruz qalmamaq
5. Nikah məsələsində fikrimin əsas alınması
6. Ailə tərəfindən mənəvi dəstək və münasibətlərin yaxşı olması
7. Ailə tərəfindən maddi dəstək
8. Xeyriyyə təşkilatlarının daha çox olması
9. Dövlət qurumlarının mənim kimi həssas qruplara daha diqqətli davranması
10. Digərləri

Bu imkanların bəziləri dövlət xidmətləri ilə bağlı olsa da bəziləri ailə və sosial çevrədəki imkanlara daha çox bağlıdır. Ümumilikdə 1-3, 9-cu imkanlar dövlət orqanlarının təqdim etdikləri imkanlarla bağlı olsa da digərləri daha çox ailə və sosial çevrədən, 8-ci cavab variantı isə vətəndaş cəmiyyəti təşkilatlarının təqdim etdiyi imkandan asılıdır. Beləliklə, qurbanlar hansı imkanlar olsaydı qurbana çevrilməzdi sualına aşağıdakı şəkildə cavab vermişdir.



Qrafikdəki nəticələrdən göründüyü kimi, qurbanlar, dövlət xidmətləri tərəfindən yaradılan imkanlardan gözləntilərindən ailə, sosial çevrə və vətəndaş cəmiyyəti təşkilatları tərəfindən yaradılan imkanlara nəzərən gözləntilərindən daha çoxdur. Belə ki, nəticələrə görə ilk üç imkan-iş imkanlarına əlçatanlığı təmin etmək, keyfiyyətli təhsil və peşə hazırlığı, dövlət qurumlarında həssas qruplara yanaşmanı yaxşılaşdırmaq daha vacib hesab edilir. Yəni təhsil, peşə, iş təminatı sahəsində imkanlar daha yaxşı olsaydı və  dövlət qurumları potensial qurbanlara daha həssaslıqla yanaşsaydı onların insan alveri qurbanı olma ehtimalı nəzərə çarpacaq dərəcədə azalardı. Ən az gözlənti isə xeyriyyə təşkilatlarının yaratdığı imkanlarla bağlıdır. Bu onu göstərir ki, qurbanların cavablarında formalaşacaq imkanların qiymətləndirilməsində imkanların yarandığı mənbənin dayanıqlılığı, habelə imkanları yaradan şəxslərin hüquqi sistemində səlahiyyətlilik dərəcəsi seçimlərin edilməsində daha vacib meyardır. İlk üçlükdə gələn cavablardan belə görünür ki, qurbanlar daha səlahiyyətli və daha dayanıqlı qurumlardan yaranan imkanlara daha çox etibar edir.

## NƏTİCƏ:

2005-ci ildə qəbul edilmiş İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikası qanununu, 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planını, Azərbaycanın qoşulduğu Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını və həmin Konvensiyaya aid İnsan alverinin və xüsusilə qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılmasına dair Protokolunu və Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyasının tələblərinə uyğun olaraq, insan alverinə səbəb olan bütün istismar növlərinə və xüsusilə də qadın və uşaqların istismarına şərait yaradan səbəbləri aradan qaldırmaq üçün hüquqi, inzibati, maarifləndirmə, sosial, mədəni və digər tədbirlərin həyata keçirməsi və gücləndirməsi, xüsusilə də qabaqcıl təcrübələr, metodlar və strategiyalar üzrə tədqiqatların aparılması Azərbaycanda insan alverinə qarşı mübarizə şərtləndirən amillərdir.

Milli Fəaliyyət Planı çərçivəsində nəzərdə tutulan insan alveri probleminin sosial-psixoloji aspektlərinin öyrənilməsi, səbəblərinin müəyyənləşdirilməsi və aradan qaldırılması, qurbanların hüquqi müdafiəsinin mövcud vəziyyəti ilə bağlı tədqiqatın aparılması və təkliflərin hazırlanması fəaliyyətinə vətəndaş cəmiyyəti təşkilatı olaraq töhvə verməyə çalışılmışdır.

Lakin, bütün bu görülən işlərə baxmayaraq, ABŞ səfirliyinin 2020-ci il hesabatında[6] qeyd olunur ki, "Azərbaycan hökuməti insan alverinin aradan qaldırılması üzrə minimum standartlara tam cavab vermir; amma bunu etmək üçün əhəmiyyətli səylər göstərir. Daha çox insan alverçisini məhkəməyə cəlb etmək və onların daha sərt cəzalar almağı üçün hakimlərə təlimat vermək, bu səylərə daxil idi. Hökümət vətəndaş cəmiyyəti üçün qrantlar təsis edib, qurbanların qorunması üçün maliyyə dəstəyini əhəmiyyətli dərəcədə artırıb, və QHT liderlərini insan alverinə qarşı fəaliyyətlərinə görə təltif edib. Amma, keçən hesabat dövrü ilə müqayisədə, hökümət ümumilikdə bu sahədə səylərin artdığını nümayiş etdirməyib. Müşahidəçilər, hüquq mühafizə orqanlarında qurbanı əsas götürən yanaşmanın hələ də olmadığını bildiriblər". Hesab edirik ki, bu münasibət qərəzli yanaşmanın göstəricisidir.

**İnsan alveri qurbanına çevrilmələrinə səbəb olan amillərlə** bağlı isə, onu qeyd etmək lazımdır ki, dərinləşdirilmiş intervyular zamanı mütəxəssislərin söylədiyi fikirlərlə, sorğu anketlərində birbaşa və potensial qurbanların fikirləri arasında müəyyən fərqlər müşahidə olunmuşdur. Hesab edirik ki, bu səmimilik və kommunikasiyasının qurulması ilə bağlı olan məsələlərdir.
Mütəxəssislərin rəyinə əsasən, şəxslərin insan alveri qurbanlarına çevrilməsinin əsas səbəbləri kimi, ailə üzvlərinin bilik və ümumi dünyagörüşü səviyyəsi, rifah səviyyəsi, ailədə mövzud münaqişələr, yaxın qohumlar, kənar şəxslər və ya sosial şəbəkələr vasitəsilə aldanma, işsizlik, miqrasiya amilləri və ictimai qınağın olmamasını qeyd etmişlər. Bu da onlara göstərilən həssas yanaşmadan asılıdır. Onların özlərinə olan özünəgüvən dərəcəsi səmimiliklərinə təsir edir. Səbəblər təsnifatlandırılaraq sorğu nəticəsində aşağıdakı amillər qeyd olunmuşdur:

[6] ABŞ səfirliyi, "İnsan Alveri" ilə bağlı 2020 il üzrə hesabatı: https://az.usembassy.gov/az/trafficking-in-persons-report-2020-az/

- Himayəsində xüsusi qayğıya ehtiyacı olan şəxslərin tibbi və sosial xərcləri yüksək olması.
- Aliment pulunu almadıqları və başqa yerdən maliyyə mənbəyi, habelə əmək bazarında layiqli əməklə təmin edilməməsi və peşə bacarıq və biliklərinin olmaması
- Maliyyə-kredit təşkilatlarına ödənilməmiş borcların mövcudluğu səbəbindən və özəl şəxslərdən sələmə pul aldıqları şəxslər tərəfindən borcun əvəzi olaraq məcburi əməyə cəlb edilməsi.
- Nakrotik ehtiyacını qarşılamaq məqsədi ilə cinsi istismara vadar edilmələri.
- 53 nəfər daha yaxşı rifah səviyyəsi təmin etmək məqsədi ilə insan alveri qurbanı olmasını öz istəyi ilə əlaqələnədirmişdir.

Yuxarıda sadalanan səbəblərin aradan qaldırılması istiqamətində aşağıda sadalanan təkliflərin nəzərə alınması tövsiyə edilir.

# TƏKLİFLƏR

BMT-in Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi üzrə Komitəsinin (CEDAW Komitəsinin) Azərbaycan dövlətinin təqdim etdiyi dövri hesabatla bağlı insan alveri ilə əlaqəli olan irəli sürdüyü tövsiyələrin bəzilərinin bu tədqiqat zamanı regionlarda verilən təkliflərlə müəyyən dərəcədə üst-üstə düşdüyü müşahidə olunmuşdur. Belə ki, aşağıdakı təklifləri by mənada qeyd etmək olar:

(a) Qadın və qızların fahişəliyə satılma və yaxud orqan alveri və qul əməyinə məruz qalma hallarını aşkarlamaq, onlara reaksiya vermək və qarşısını almaq üçün yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyaları müvafiq insan, maliyyə və texniki resurslarla təmin etmək; Uşaqların, xüsusilə qızların, müdafiə siyasətinin əsas aspektlərini həyata keçirmək üçün uşaqların milli müdafiə sistemini gücləndirmək və ya onu yenidən təşkil etmək;

(b) İnsan alveri ilə mübarizə aparmaq üçün milli təyinat mexanizminin siyasi çərçivəsinin tam icrasını təmin etmək;

(c) Uşaqların, xüsusilə qızların, iştirakı ilə pornoqrafiyanı cinayət əməli etmək, və belə hallar üçün hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq müddəaları dəyişmək;

(d) Dövlətin sosial reabilitasiya və cəmiyyətə reinteqrasiya tədbirləri çərçivəsində satış, fahişəlik və pornoqrafiya cinayətlərinin qurbanı olan uşaqların, xüsusilə qızların, ehtiyaclarını nəzərə almasını təmin etmək;

(f) Qadınları fahişəliyə sövq edən amilləri tədqiq etmək və fahişəliyi tərk etmək istəyən qadın və qızlar üçün reabilitasiya/cəmiyyətə reinteqrasiya proqramları və mərkəzlərinin sayını artırmaq[7].

**Insan alveri problemlərinin müəyyənləşdirilmiş**

**səbəblərinin aradan qaldırılması ilə bağlı təkliflər aşağıdakılardır:**

**İstiqamət 1: Maarifləndirmə**

**Təlimlərin təkmilləşdirilməsi**

- İndiyədək həm dövlət, həm də qeyri-dövlət qurumları tərəfindən insan alveri mövzusunda keçirilən təlimlərin effektivliyinin ölçülməsi məqsədilə anket suallarına verilmiş cavablar nəticəsində müəyyən edilmişdir ki, bu cür təlimlərdə iştirak etmiş və təlimlər barədə xəbəri olanlar arasında olan insanlar tərəfindən verilən cavablardan bu cür təlimlər ənənəvi klassik qaydada keçirildiyi müəyyən edilir. Təlim metodikalarında yenilik və kreativ yanaşma çatışmır. Misal olaraq, insan alveri mövzusunda keçirilən təlimlərdə, təklif olunur ki, təlimdə, mühazirə və seminar xarakterli tədbirlərdən əlavə interaktiv informasiya sessiyaları keçirilsin. Bu cür sessiyalarda öncədən icra orqanları tərəfindən müyyən edilmiş insanlar yox, məhz bu məsələdə hər hansıköməyə ehtiyacı olan insanlar da cəlb edilsin və onlar

[7] UN CEDAW Concluding Observations on Azerbaijan State Report. 2015, https://www.ohchr.org/en/countries/enacaregion/pages/azindex.aspx

yerində təmənnasız məsləhət xidmətləri alsınlar (məsələn, izahedici, hüquqi, psixoloji məsləhətlər və s.).

### Məktəblərdə cinsi istismarla bağlı maarifləndirmə

- Azərbaycan Respublikası Avropa Şurasının "Uşaqların cinsi istismar və seksual hərəkətlərdən qorunması haqqında" Konvensiyanı (Lanzarotte Konvensiyası) 2008-ci ildə imzalamış, lakin yalnız 2019-cu ildə ratifikasiya etmişdir və müddəaların həyata keçirilməsini təmin etmək üçün konkret siyasət və ya fəaliyyət proqramı mövcud deyildir. Xüsusilə, Lanzarotte konvensiyasının 6-ci Maddəsində nəzərdə tutulan, "Uşaqların ibtidai və orta təhsil aldıqları dövrdə cinsi istismar və seksual xarakterli hərəkətlər, eləcə də onların yaşına uyğun özlərini müdafiə etmək vasitələri barədə məlumat almalarını təmin etmək üçün Təhsil Nazirliyi tərəfindən məktəblər üçün təlimat xarakterli sənədin qəbul olunması və bu sənəddə valideynlərin də cəlb ediləcək cinsi tərbiyə haqqında informasiyanın və təlim xarakterli tədbirlərin xüsusilə də yeni informasiya və kommunikasiya texnologiyalarından istifadə edilməsinin həyata keçirilməsi öz əksini tapması təklif olunur[8]. Preventiv xarakterli maarifləndirmə tədbirlərinə Avropa İttifaqının üstünlük verməsini də qeyd etmək olar. Belə ki, 2021-ci ilin aprel ayında qəbul edilmiş, Avropa İttifaqının 2021-2025-ci il üzrə İnsan Alverilə mübarizə Strategiyasına əsasən, üzv dövlətlər və vətəndaş cəmiyyəti təşkilatları ilə birlikdə yüksək risk sektorları və yüksək risk mühitlərini hədəfə alan preventiv xarakterli kampaniyaların təşkili nəzərdə tutulur[9]. Təklif olunur ki, Azərbaycan da bu təcrübədən yararlanaraq müvafiq maarifləndirici tədbirlər həyata keçirsin. Bundan ötrü Avropa İttifaqının Bakı ofisinin bu məsələdə də əlaqələndirmə və dəstək xidmətlərindən istifadə tövsiyə olunur.

- Uşaqlar arasında potensial insan alveri qurbanlarına çevrilmə problemini aradan qaldırmaq məqsədi ilə növbəti təlimlərdə valideynlərin iştirakını təmin etməklə, onların bilik və bacarıqlarını artırmaqla problemin önlənməsində və həllində ailənin rolunu artırmaq. Təlimlər zamanı yeni texnologiyalar və audio-vizual materiallardan istifadə etməklə, uşaqların müasir inkişaf tendensiyalarını nəzərə almaq. Valideynlərə təlimlər zamanı məcburi əməyə insan alveri problemi kimi baxmağa nail olmaq.

- Valideynlər arasında ümumi orta təhsilin üstünlükləri və təhsilini yarımçıq saxlamış və erkən yaşlarında işləməyə başlamağın zərəri haqqında maariflənmə işlərini aparmaq.

### Gender məsələləri və həyati bacarıqlar üzrə təlimlər

- Yeniyetməlik dövrü şəxsiyyətin formalaşmasında önəmli rol oynayır. Məhz bu dövrdə vacib həyati bacarıqlar yaranır. Bu səbəbdən yeniyetmələr arasında müəyyən bacarıqların (misal üçün həyati bacarıqların) formalaşdırılmasına təkan

---

[8] UŞAQLARIN CİNSİ İSTİSMAR VƏ SEKSUAL XARAKTERLİ HƏRƏKƏTLƏRDƏN MÜDAFİƏSİNƏ DAİR AVROPA ŞURASI KONVENSİYASI, https://rm.coe.int/prems-082919-aze-2576-lanzarote-convention-web-002-/168094dfe4

[9] Avropa İttifaqının 2021-2025-ci il üzrə İnsan Alverilə mübarizə Strategiyası, https://ec.europa.eu/home-affairs/system/files_en?file=2021-04/14042021_eu_strategy_on_combatting_trafficking_in_human_beings_2021-2025_com-2021-171-1_en.pdf

ola biləcək təlimlərin keçirilməsi insan alverinin qurbanı olmaqdan onları qoruya biləcək. Bu həyati bacarıqlar ailə şəraiti, yaşadığı mühit, təhsildən asılı olaraq müxtəlif formada inkişaf edir. Bu təlimlər uşaqlar arasında sağlam psixi və fiziki şəxsiyyət obrazını formalaşdırılmasının təbliğinə yönəlib.

- Cəmiyyətdə insan alveri qurbanları probleminə yanaşmanın inkişafı və davranış dəyişikliyi ilə bağlı aşağıdakı tədbirlər təklif olunur:
- gender bərabərliyi sahəsində Avropa Şurasının standartlarının, tədqiqatlarının, təlimatlarının, layihələrinin, tədbirlərinin və onların nəticələrinin əyaniliyini artırmaq;
- gender bərabərliyi məsələlərinə dair məlumatlılığı artırmaq və yanaşmaların, mentalitetlərin və davranışların dəyişdirilməsinə töhfə vermək istiqamətində maarifləndirici tədbirləri gücləndirmək.
- Milli, regional və yerli səviyyədə davranış dəyişikliyi ilə bağlı müsbət təcrübələrin və toplanmış məlumatların yayılması və tədrisi.

- Bir sıra dövlət orqanları nəzdində fəaliyyət göstərən İctimai Şuralar arasında İnsan alveri probleminin həllinin İctimai İştirakçılıq yolu ilə fəyata keçirilməsi istiqamətində Təhsil, Səhiyyə, Əmək və Sosial Müadifə, eləcə də Komitənin fəaliyyətlərinin koordinasiya edilməsi və birgə maaarifləndirici və müdafiə tədbirlərinin həyata keçirilməsi.

### Sosial reklamlardan istifadə

- Maarifləndirmə blokuna daxil olan məsələlərdən biri kimi, sosial xarakterli reklamların artırılması təklifidir. Belə ki, "Reklam haqqında qanun"un 10.5-ci maddəsinə əsasən, "Mülkiyyət formasından asılı olmayaraq, hər bir reklam yayıcısı televiziya və radio yayımı zamanı reklam üçün ayrılan efir vaxtının, nəşrlərdəki reklam yerlərinin və reklam qurğularının ümumi sahəsinin ən azı **səkkiz faizini** sosial reklam üçün ayırmağa borcludur. Sosial reklam efirdə məzmununa uyğun olaraq saat 9.00-dan 00.00-a qədər olan müddət ərzində yayımlanmalıdır. Burada təklif olunur ki, "səkkiz faizini" sözü **"on beş faizini"** sözləri ilə əvəz edilsin.

### İstiqamət 2: Qurbanların müdafiəsi

### Məcburi əmək məsələləri üzrə təkliflər

- Beynəlxalq Miqrasiya Təşkilatının rəyinə əsasən Azərbaycan Respublikasında məcburi əmək halları əmək qaydalarının pozuntusu kimi təqib olunur, ona görə ki, onlar insan alverinin anlayışı çərçivəsində cinayət əməlləri və ya istismar forması kimi qəbul edilmir yaxud müəyyənləşdirilmir. Bu məsələ ilə əlaqədar təklif olunur ki, məcburi əməyə görə cəza tədbirlərinin insan alveri probleminə səbəb olan amillərdən biri kimi yanaşılması üçün, yenidən nəzərdən keçirilsin. Əməyin istismarı, avaraçılıq və dilənçilik edənlərin digər kateqoriya insan alveri qurbanları ilə bərabər, cəmiyyət tərəfindən potensial insan alveri

qurbanları kimi qəbul edilməsi istiqamətində ictimai maraqların müdafiəsi və lobbiçilik fəaliyyətinin gücləndirilməsi.

- Əmək müfəttişlərinə və ya digər qeyri-hüquq mühafizə qurumlarına insan alveri qurbanları ilə bağlı monitorinq səlahiyyətlərinin verilməsi məsələsini nəzərdən keçirmək. Bəzi ölkələrin əlaqədar qurumlarında əmək müfəttişliyinin insan alveri qurbanlarının olduğu yerlərdə qurbanların müdafiəsinə yönəlik (Victim-centered) monitorinq və yoxlamaların keçirilməsi təcrübəsini nəzərdən keçirmək.

## Surroqat analıq

Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə haqqında qanunun anlayışlarla bağlı hissəsində, insanların istismarı növlərindən biri kimi qadının surroqat ana kimi istifadəsi də göstərilir. Lakin, Azərbaycan Respublikası Ailə məcəlləsinin 46.4-cü maddəsi ilə surroqat ana qanunvericiliklə tanınır və birbaşa olaraq insanların istismarı olaraq qeyd edilməsi ilə ziddiyət təşkil edir. Belə ki, həmin maddədə qeyd olunur ki, "öz aralarında nikahda olan və süni mayalanma və ya embrionun implantasiyasının tətbiqi barədə yazılı razılığı olan valideynlərin həmin metodlar nəticəsində uşağı olduqda, uşağı doğan qadının (surroqat ananın) razılığı ilə doğum haqqında şəhadətnamədə onlar uşağın valideynləri kimi qeydə alınırlar".
Təklif olunur ki, İnsan alverinə qarşı mübarizə haqqında qanunun 1-ci maddəsinin 1.0.2-ci bəndində "qadının surroqat ana kimi istifadə edilməsi" sözlərinin çıxarılması ilə bağlı müddəaya dəyişiklik edilsin.

## Mediasiya mexanizmlərindən istifadə

- Ailə münasibətlərində yaranan problemlərin potensial olaraq insan alveri probleminin yaranmasına dəlalət edə biləcəyi ehtimalını nəzərə alaraq, bu cür problemlərin həlli istiqamətində fəaliyyəti bir sıra hüquqi, sosial, psixoloji xüsusiyyətlər və tələblərlə xarakterizə olunan mediator və ümumiyyətlə mediasiya prosesi vacib rol oynayır. Üçüncü bitərəf tərəf olan mediator münaqişənin həllinə kömək edir. Avropa Parlamenti və Şurasının 21 May 2008-ci il tarixli 2008/52 / AB Direktivi mediasiyanı mübahisənin iki və ya daha çox tərəfinin mübahisələrini həll etmək üçün könüllü razılığa gəlməyə çalışdıqları strukturlaşdırılmış bir proses olaraq təyin edir. Azərbaycanda yeni yaranmış Mediasiya institutunun köməyi vasitəsilə qeyri-məhkəmə müdafiə mexanizmi kimi istifadə edilməsi sahəsində geniş maarifləndirmə tədbirlərinin həyata keçirilməsi təklif olunur.

## Potensial qurbanlara dəstək tədbirləri və xidmətlər

- İnternat müəssisələrini, xidmətləri, himayədar ailələri və qəyyumluğu tərk etmiş və ailə qurmuş gənclərə təxirə salınmadan müvafiq icra hakimiyyəti orqanı tərəfindən güzəştli şərtlərlə uzun müddətli kreditlər verilməlidir. Bu kreditlər belə gənclərin kiçik sahibkarlıqla məşğul olması imkanlarını genişləndirmək üçün verilməlidir. Müvafiq icra hakimiyyəti orqanı belə şəxslərin əməyinin istismar olunması və onların insan alverinin qurbanına çevrilməməsi üçün zəruri fəaliyyətləri həyata keçirməlidir. Bu fəaliyyətlərin həyata keçirilməsi prosesinə QHT-lər də cəlb olunmalıdır. Belə şəxslərin əmək fəaliyyətinə

başlaması onların əməyinin istismar olunmasına, təhsildən yayınmasına və hüquqlarının pozulmasına səbəb olmamalıdır.

- Uşağın saxlanılması üçün məhkəmənin təyin etdiyi alimentin dövlət tərəfindən (sonradan borcludan məcburi qaydada alınması şərti ilə) ödənilməsi üzrə mexanizmin (Aliment Fondunun) yaradılması təklif edilir. Bu təklif eyni zamanda Azərbaycanda insan hüquqlarının qorunması haqqında İnsan hüquqları üzrə müvəkkilin (Ombudsmanın) 2020-ci il üzrə məruzəsində də qeyd edilmişdir. Hesabatda edilən digər tövsiyə bundan ibarətdir ki, məhkəmə qətnamələrinə əsasən, borclu dövlət qurumları tərəfindən vətəndaşlara ödənilməli olan vəsaitlərin ödənişinin təmin edilməsi məqsədilə həmin qurumlara müvafiq maliyyə vəsaitinin ayrılması üzrə mexanizm hazırlansın və tətbiq edilsin.

- Azərbaycan Respublikası Avropa Şurasının "Uşaqların cinsi istismar və seksual hərəkətlərdən qorunması haqqında" Konvensiyasının (Lanzarotte Konvensiyası) 14-cü maddəsində nəzrədə tutulan qurbanlara yadım məqsədilə, terapevtik, psixoloji, hüquqi və sosial reabilitasiya xidmətlərinin göstərilməsi məqsədilə Uşaqların cinsi istismarı və onlara qarşı fiziki zorakılıqla bağlı institusional və ixtisaslaşdırılmış Reabilitasiya Mərkəzlərinin və Sığınacaqların yaradılması təklif olunur.
- İnsan alveri qurbanlarının sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə sosial ödənişlərin artırılması təklif olunmuşdur. Həmçinin sosial müavinətlərin ünvanlılığını təmin etmək üçün elektron baza təşkil olunmalı və bu bazaya əsasən avtomatik ünvanlı yardım ala biləcək şəxslərin sadələşdirilmiş kateqoriyaları və müəyyənləşdirmə mexanizmləri müəyyən olunmalıdır.

**Cismani cəzanın ləğv edilməsi**

- Azərbaycanda uşaqlara qarşı bütün növ cismani cəzaların ləğv edilməsi haqqında qanunun, və ya fəaliyyət planı və ya strategiyanın qəbul edilməsi təklif olunur. Bir sıra ölkələrdə artıq bu cür xüsusu qanunvericilik aktları qəbul edilib. 2010-cu ilin may ayından etibarən Avstriya, Bolqarıstan, Macarıstan, Almaniya, Yunanıstan, Danimarka, İslandiya, İspaniya, Kipr, Latviya, Lixtenşteyn, Lüksemburq, Moldova, Niderland, Norveç, Portuqaliya, Rumıniyada uşaqların hər cür şəraitdə fiziki cəzalandırılması qanunla tam olaraq qadağandır. Ukrayna, Finlandiya, Xorvatiya və İsveç və bir sıra digər Avropa ölkələrində məktəblərdə və həbsxanalarda fiziki cəza qadağandır, lakin tam qadağa yoxdur. BMT-nin Uşaq Hüquqları Komitəsi, qeyd edir ki, uşaqlara qarşı cəza nə qədər mülayim olursa olsun, ağrı və ya narahatlıq yaradan fiziki güc tətbiq edilən hər hansı bir cəza yolverilməzdir.

**Qadınlara qarşı zorakılığın qarşısının alınması üzrə təkliflər. İstanbul Konvensiyası bizə lazımdırmı?**

- Son dövrlər İstanbul Konvensiyasının Azərbaycanda qəbulu və tətbiqi perspektivləri ilə bağlı müxtəlif səviyyələrdə diskussiyalar aparılır. Azərbaycanın İstanbul Konvensiyasına qoşulma ehtimalını nəzərdən keçirmək üçün bu diskussiyaların daha düzgün koordinasiya məqsədilə ictimai dinləmələrin təşkil edilməsi təklif olunur. İstanbul Konvensiyası qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınmasına və onlarla mübarizə aparılmasına

yönələn qanunvericiliyin və strategiyaların hazırlanmasını üzv dövlətlərə tövsiyə etmişdir. Bununla belə, qadınlara və qızlara qarşı zorakılığın aradan qaldırılmasına yönələn siyasət və tədbirlərin hazırlanmasında, o cümlədən zorakılıqların bütün qurbanlarına məqsədyönlü yardım xidmətlərinin təmin edilməsi üçün mövcud resursları artırmaq tövsiyə olunur.

- Bundan əlavə, əhalinin həssas qruplarının, məsələn, miqrant, qaçqın və sığınacaq axtaran qadınların, narkotik istifadəçiləri olan qadınların, cinsi orientasiyası fərqli olan insanların, qaraçı qadınların qarşılaşdıqları mümkün zorakılıqların aradan qaldırılması məqsədyönlü siyasət və fəaliyyətlər tələb edir. Bundan ötrü siyasət sənədlərinin və ya fəaliyyət planlarının qəbulu arzuolunandır.

**Uşaq və gənclərlə bağlı**

- Cinayət Məcəlləsinin 152-ci maddəsində (On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə)16 yaşına çatmayan sözlərinin 18 yaşına çatmayan sözləri ilə əvəz edilməsi təklif olunur. Bu təklif bir neçə rayonda səslənmişdir. Bununla, cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etməyə görə cəzalar on səkkiz yaşına çatmayan şəxslərə nəzərən müəyyənləşdirilməlidir. Konkret olaraq təklif olunur ki, "**On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə" cümləsində "On altı" sözlərinin yerinə "On səkkiz" sözləri yazılsın.** On altı yaşı tamam olmayan şəxslə cinsi əlaqəni qadağan edən maddənin tələbinə əsasən, 14 yaşı tamam olmuş, lakin 16 yaşına çatmayan şəxsin özündən iki yaş böyük adamla öz razılığı, yəni könüllü cinsi əlaqədə olması belə cinayətin baş verdiyini göstərir. Bununla da, eyni zamanda 16 yaşına deyil, 18 yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmənin üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılması təklif olunur. O cümlədən, göstərilən əməlləri törətmiş şəxslə zərərçəkmiş şəxsin yaş fərqi iki ildən çox olduqda cinayət məsuliyyətinin yaranması barədə qeydin ləğvi zəruri sayılır. Ailə Məcəlləsinə əsasən, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Bununla belə, Ailə Məcəlləsinin 10.2-ci maddəsinə əsasən, üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Bu zaman CM-nin 152 maddəsilə kolliziya yaranır. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sənədlərdə, Uşaq Hüquqları haqqında Qanunda və xüsusilə Uşaq Hüquqları Konvensiyasında 18 yaşına qədər insanların uşaq sayılması və BMT İnsan Alveri ilə bağlı Protokoluna əsasən 18 yaşa çatmamış şəxslərin uşaq sayılması bu təklifi zəruri edir.

- Gənclər siyasəti haqqında Qanunun gənclərin sosial və s. sahələrdə müdafiəsinə yönəldiyini nəzərə alaraq, orada xüsusi qayğıya və müdafiəyə ehtiyacı olan gənclərə aid təkliflərin və ya onların müdafiəsinə dair müddəaların olmaması narahatlılıq doğurur. Belə düşünmək olar ki, qanun yalnız gənclər təşkilatlarında birləşən, istedadlı olan və ya gənc olarkən ailə qurmuş ailələrə şamil edilir.

Xüsusi qayğıya və müdafiəyə ehtiyacı olan gənclərə aşağıdakı gənclər aiddir: əqli və fiziki əlilliyi olan, ağır və xüsusilə ağır cinayətin və ya zorakılığın qurbanı olmuş,

insan alverinə (trafikinqə) məruz qalmış, törətdiyi cinayətə görə məhkum edilmiş, qaçqın və məcburi köçkün gənclər, cəzaçəkmə yerindən azad edilmiş və internat müəssisələrindən və xüsusi tədris məktəblərini bitirmiş gənclər. Xüsusi qayğıya və müdafiəyə ehtiyacı olan gənclərin psixoloji, sosial və fiziki reabilitasiyası və cəmiyyətə qaytarılması (reinteqrasiyası) üçün xüsusi hüquqi və sosial dayaq mərkəzlərinin və ya xidmətlərinin (Gənclər evi vasitəsilə) təşkili.

**Hüquqi müdafiə tədbirləri**

Qurbanların sığınacağa yerləşdirilməsi ilə bağlı bəzi regionlarda keçirilən fokus qrup görüşlərində aparılmış müzakirələri nəzərə alaraq, yerli Polis əməkdaşları ilə yeni yaranmış Sosial Xidmətlər Agentliyi ilə qurbanların sosial reabilitasiya və reintegrasiya ilə bağlı məsələlərlə bağlı sosial xidmət göstərən yerli QHT-lərin iştirakı ilə Koordinasiya Qrupunun yaradılması tövsiyə olunmuşdur.

**Qaraçıların** sığınacaqlarda, reabilitasiya mərkəzlərində yerşəldirilməsinə əsas maneə törədən səbəb onların bir çoxlarının sənədlərinin yoxluğu göstərilir. Digər maneə onların etnik mənşəyinin də müəyyən edilməməsidir. Təklif olunur ki, qaraçıların etnik mənşəyinin təyin olunması istiqamətində rəsmi səviyyədə araşdırma aparılsın, etnik mənşə barədə ümumi nəticə əldə edildikdən sonra, bu kateqoriyadan olan şəxslərin etnik qrupların bəhrələndiyi hüquq və təminatlardan istifadəsi rəsmiləşsin. Eyni zamanda qaraçıların hüquqi statusu müəyyən edilməsi, şəxsiyyəti və digər hüquqları təsdiq edən sənədlərin əldə olunması və etnik mənşəyinin müəyyən edilməsi üçün rəsmi orqanlar tərəfindən ümumi yanaşmanı özündə ehtiva edəcək strategiya hazırlansın. Qaraçıların potensial olaraq insan alveri qurbanlarına çevrilməsinin qarşısının alınması üçün bu cür strategiyanın hazırlanmasına ehtiyac vardır. Bu sahədə ilkin olaraq problemin ictimai müzakirələr vasitəsi ilə müzakirəsi əhəmiyyətli ola bilər. İctimai Şuralar bu sahədə müzakirə formatı olaraq istifadə edilə bilər.

**Aşağıdakı sənədlər bu hesabata əlavə olunur:**

**Əlavə 1. Layihənin işçi heyəti və dərinləşdirilmiş intervyularda iştirak edənlərin siyahısı**

**Əlavə 2. Görülmüş işlər barədə qısa məlumat**

**Əlavə 3. Dərinləşdirilmiş intervyu suallarının nümunəsi**

**Əlavə 4. İnsan alveri qurbanları ilə sorğu anketi nümunəsi**

**Əlavə 5. Təlimlərin qiymətləndirilməsi anketi**

# Əlavə 1

**Layihənin işçi heyəti və Dərinləşdirilmiş intervyularda iştirak edənlərin siyahısı**

**Anket sorğuları və dərinləşdirilmiş intevyu sualları** cəlb edilmiş mütəxəssislər tərəfindən (sosioloq və psixoloq) və layihə koordinatoru tərəfindən hazırlanmış və Komitəyə təqdim edilmiş, alınan əlavə rəy və təkliflərlə birgə son versiya hazırlanmışdır.

Sualların hazırlanması aşağıdakı mütəxəssislər tərəfindən həyata keçirilmişdir:

- Hüquqi aspektlər: **Ramil İskəndərli** (HTA İB sədri) və **Fariz Əkbərov** (hüquqşünas)
- Sosial və iqtisadi səbəblər: **İsmayıl Kərimov** (Məşğulluq Agentliyinin eksperti) və **Elmari Məmişov** (HTA İB sədr müavini)
- Psixoloji səbəblər: **Ülviyyə Hümmətova** (“Fokus Grup” mərkəzinin rəhbəri, psixoloq)
- Sorguların keçirilməsinin təşkili: **Əli Fərzəliyev** (GHB İB), **Kəmalə Aşumova** (Uşaq Alyansı), **Radə Qafarova** (GTM İB).

Ümumilikdə işin icrasına 2 nəfər əmək müqaviləsi ilə, 6 nəfər isə haqqı ödənilməklə xidmət müqaviləsi əsasında cəlb edilmişdir.

**Dərinləşdirilmiş intervyularda iştirak edənlərin siyahısı:**

***Əlaqədar dövlət qurumları***

1. *Vamiq Naməndzadə - DİN İnsan Alveri İdarəsinin əməkdaşı (əlaqəli şəxs)*
2. *Həbibə Qəribova* - Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi yanında *İnsan Alveri* Qurbanlara Yardım Mərkəzinin direktoru (əlaqəli şəxs)
3. Vasif Quliyev – Mingəçevir Polis İdarəsinin sahə rəisi
4. Pərviz Quliyev – Mingəçevir Polis İdarəsinin sahə inspektoru
5. Könül Qalidova – Mingəçevir Uşaq və Aillələrə Dəstək Mərkəzi
6. Yasəmən Rəsulova - – Mingəçevir Uşaq və Aillələrə Dəstək Mərkəzi
7. Aygün Fərruxova - Mingəçevir Uşaq və Aillələrə Dəstək Mərkəzinin direktou
8. İmanverdi Vəliyev – Gəncə Maarif Mərkəzinin direktoru
9. İsmayıl Kərimov – sosioloq, Məşğulluq Agentliyinin eksperti

**QHT-lər, Sığnacaqlar və Sosial Xidmət Müəssisələri**

10. Kəmalə Aşumova – Ümidli Gələcək Sosial Təşəbbüslər İB sədri
11. Gülşən Axundzadə - Uşaq Qaynar Xidmətinin psixoloqu
12. Radə Qafarova – Ağcabədi, Sosial Reabilitasiya Mərkəzinin rəhbəri, GTM
13. Kəmalə Ağazadə - Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin rəhbəri
14. Mehriban Zeynalova – Qadın və Uşaq Sığınacağı və Təmiz Dünya Qadınlara Yardım İB-nin sədri

15. Tural Rəhimov – Mingəçevir Gənclər evi Sosial Xidmət Müəssissəsi
16. Eşqin Məmmədov – Mingəçevir Gənclər evi Sosial Xidmət Müəssissəsi
17. Humay Baxışova – Mingəçevir Gənclər evi Sosial Xidmət Müəssissəsi
18. Kəmalə Əliyeva – Uşaq Qayğı Mərkəzi
19. Südabə Məmmədova – Təmas Regional İnkişaf İctimai Birliyi
20. Vüsalə Əliyev – Ağcabədi, pedaqoq
21. Hökmdar Səfərzadə - Ağcabədi, Reabilitasiya Mərkəzi, Sosial işçi
22. Elnur Qaslmov – - Ağcabədi, Reabilitasiya Mərkəzi, sosial işçi
23. Eynulla Xeyrullayev – Quba QHT Resours Mərkəzi
24. Əli Mirzəyev – Şirvan QHT Resurs Mərkəzi
25. Azər Ramazanov – Ahıllara Dəstək İctimai Birliyi
26. Nuranə Əhmədova – İşıqlı Gələcək İB-nin rəhbəri (Mingəçevir)
27. Kübra Məmmədova – Təmas Reabilitasiya Sığınacaaq Mərkəzi
28. Elmira İsmayılova - Əlil Qadınlar Cəmiyyətinin sədri
29. Elçin Seyidov – Sosial Hüquqi Araşdırmalar Mərkəzi, Gəncə
30. Zərifə Seyidova - Sosial Hüquqi Araşdırmalar Mərkəzi, Gəncə
31. İnarə Məmmədova – Regional İnkişaf üzrə Maarifləndirmə Mərkəzi Gəncə
32. Emin Quliyev – Gənclər üçün Təhsil Mərkəzi, Yevlax
33. Orxan Ağayev – Gənclər üçün Təhsil Mərkəzi, Yevlax
34. Ülviyyə Şahbazova – Gənclər üçün Təhsil Mərkəzi, Şirvan Şəhəri
35. Yusif Poladov – Şirvan Gənclər Mərkəzi
36. Orxan Kazımzadə - Sosial işçi, GTM, Şirva,n
37. Xanım Əbdürrəhmanova – GTM, pedaqoq, Şirvan
38. Aytəkin Mirzəyevə - Şirvan Gənclər Evi, sosial işçi

**Hüquqşünas və vəkillər**

39. Rafiq Alışov – Vəkil,  Vəkillər Kollegiyasının üzvü
40. Fariz Əkbərov – hüquqşünas, Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzi
41. Əli Fərzəliyev – Gənc Hüquqşünaslar Birliyinin İcraçı Direktoru
42. Elmari Məmişov – hüquqşünas
43. Nurəddin Hacıyev – hüquqşünas, - Ağcabədi, Reabilitasiya Mərkəzi
44. Nigar İskəndərova - hüquqşünas

**Psixoloqlar**

45. Ülviyyə Hümmətova – psixoloq, Fokus Qrup rəhbəri
46. Samir Xaniyev – Mingəçevir Gənclər evi Sosial Xidmət Müəssissəsi, psixoloq
47. Firəngiz Telmanlı - Mingəçevir Gənclər evi Sosial Xidmət Müəssissəsi, psixoloq
48. Vüqar Abışov – - Ağcabədi, Reabilitasiya Mərkəzi, psixoloq

**Media**

49. Fərman Nəbiyev – Mingəçevir Media Mərkəzinin rəhbəri, Mingəçevir İşıqları qəzertinin redaktoru
50. Yeganə Nəbiyeva - Mingəçevir Media Mərkəzi

# Əlavə 2

## Görülmüş işlər barədə qısa məlumat

“Regionlarda insan alveri problemlərinin sosial psixoloji aspektlərinin öyrənilməsi, səbəblərinin müəyyənləşdirilməsi və aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanması”

### İş icracısı: “Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyi, sədr Ramil İskəndərli

**Aprel 1 – Sentyabr 30, 2021. (6 ay)**

**Görülmüş işlərlə bağlı qısa məlumat**

“Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyi tərəfindən həyata keçrilən “Regionlarda insan alveri probleminin sosial psixoloji aspektlərinin öyrənilməsi, səbələrinin müəyyənləşdirilməsi və aradan qaldırılması” ilə bağlı təhlilin keçirilməsi (qadın və uşaq qurbanlarla iş) ilə bağlı indiyədək aşağıdakı işlər görülmüş:

- **Anket sorğuları və dərinləşdirilmiş intevyu sualları** cəlb edilmiş mütəxəssislər tərfəindən (sosioloq və psixoloq) və layihə koordinatoru tərəfindən hazırlanmış və Komitəyə təqdim edilmiş, alınan əlavə rəy və təkliflərlə birgə son versiya hazırlanmışdır.
  Sualların hazırlanması aşağıdakı mütəxəssislər tərəfindən həyata keçirilmişdir:

- Hüquqi aspektlər: Ramil İskəndərli (HTA İB sədri) və Fariz Əkbərov (hüquqşünas)
- Sosial və iqtisadi səbəblər: İsmayıl Kərimov (Məşğulluq Agentliyinin eksperti) və Elmari Məmişov (HTA İB sədr müavini)
- Psixoloji səbəblər: Ülviyyə Hümmətova (“Fokus Grup” mərkəzinin rəhbəri, psixoloq)
- Sorguların keçirilməsinin təşkili: Əli Fərzəliyev (GHB İB), Kəmalə Aşumova (Uşaq Alyansı), Radə Qafarova (GTM İB).
  Ümumilikdə işin icrasına 2 nəfər əmək müqaviləsi ilə, 6 nəfər isə haqqı ödənilməklə xidmət müqaviləsi əsasında cəlb edilmişdir.

- İşin icrası başlayan dövrdən indiyədək qismən olaraq Bakı, tam olaraq Xaşmaz, Şirvan, Ağcabədi, Gəncədə, Mingəçevir və Bakıda həm dərinləşdirilmiş intervyular və fokus qruplar, həmçinin sorğular keşirilmişdir. Yevlaxda isə fokus qrup görüşü olmadan, fərdi qaydada sorğular keçirilmişdir. İndiyədək 500 respondentdən rəyi sorğu sualları vasitəsilə öyrəlimiş və tələb olunan 50 derinləşmiş intervyu keçirilmişdir.

- Sorğuların effektiv icrasına nəzarət və dərinləşdirilmiş intervyuların keçirilməsi üçün “Xaçmaz, Sirvan, Ağcabədi, Gəncə, Mingəçevir şəhərlərinə “Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyi sədri Ramil İskəndərli və müavin Elmari Məmişov tərəfindən səfərlər edilmişdir və yerlərdə fokus qrup və ya fərdi şəkildə intervyu və sorğularda iştirak edilmişdir. Bakıda fokus qrup görüşü Kəmalə Aşumova keşirmiş və fərdi qaydada sorğu anketləri vasitəsilə görüşlər keçirilmişdir.

- **Sorğuların statistik təhlili və dərinləşdirmiş intervyiların analizi**

BU fəaliyyət növü artıq başa çatmışdır. Regionlar üzrə sorğu cavablarının statistik təhlili və dərinləşdirilm intervyuların təhlili həyata keçirilmiş və məlumat bazası formalaşmış, nəticələr təhlilin işlənilməsi üçün Ramil İskəndərliyə göndərilmişdir. (Ətraflı Yekun Təhlildə qeyd olunacaq). Məlumat bazası Yekun Təhlil Komitə tərəfindən qəbul edildikdən və razılaşdırıldıqdan sonra HTA İctimai Birliyinin websaytında yerləşdiriləcəkdir.

- **Dövlət orqanları əməkdaşlarının cəlb edilməsi**

İşin icrası müddətində Ağcabədi, Mingəçevir, Bakı şəhərlərində keçirilmiş fokus qrup üzrə dərinləşdirilmiş intervyu zamanı yerli Daxili İşlər Nazirliyinin Polis idarəsinin Polis sahə rəisi və və ya polis sahə inspektorları iştirak etmiş və hər bir sual üzrə öz mövqelərini bildirmişlər. Eyni zamanda Xaşmaz şəhərində keçirilən dərinləşdirilmiş intervyu zamanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər agentliyinin nəzdində fəaliyyət göstərən İnsan Alveri Qurbanlarına Yardım Mərkəzinin rəhbəri Həbibə Qəribova iştirak etmiş, intervyu suallarına öz münasibətini buldirmişdır.

Digər dövlət strukturlarından yerli icra orqanları (Ağcabədi və Bakıda), Ailə Dəstək Mərkəzləri (Mingəçevir və Bakıda) və digərləri iştirak etmişlər. (Ətraflı olaraq Yekun Təhlildə qeyd olunacaq).

Keçirilmiş dərinləşdirilmiş intervyular və sorğuların nəticəsəi ümumiləşdirilmiş, və digər lazımi məlumatlar toplanmış və təkilflərlə birgə Yekun Təhlilin draft versiyası hazırlanmışdır.

Sorğuların təhlili mütamadi olaraq regionlar üzrə işlər başa catdıqca işlənilmiş və təhlil olunmuşdur. Avqust ayının 10-dək 500 sorğu və Avqestun 16-dək 50 dərinləşmiş intervyu cavablarının ilkin bazası formalaşdmış və Avqust ayının 27-dək təhlil edilmişdir.

Sənəd Avqust ayının 31-də Yekun Təhlilin İlkin versiyası baxılması üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim olunmuşdur. Komitənin müxtəlif bölmələrindən, İnsan Alveri Qurbanlarına Yardım Mərkəzindən sənədin təkmilləşdirilməsi istiqamətində əlavə və dəyişiklər üzrə alınmış təklif və tövsiyyələr alınmış, nəzərdən keçirilmiş və hesabatda öz əksini tapmışdır. Hesabatın son layihə versiyası 2021-ci ilin 30 sentyabrında Komitəyə təqdim edilmişdir.

üçün Milli Fəaliyyət Planının 4.4.2-ci yarımbəndində nəzərdə tutulan tədbirlərin icrası məqsədilə Bakı və regionlarda keşirilmiş sorğu və müsahibələr üzrə İŞ Cədvəli

| Planlaşdırılmış Tarixlər | Bakı, Şirvan və Xaçmaz rayonları üzrə | Ağcabədi və Gəncə üzrə | Yevlax və Mingeçevir üzrə | Qeydlər |
|---|---|---|---|---|
| İyun 11-12 | Şirvan şəhərinə səfər. Aidiyyatı orqanların nümayəndələri və vətəndaş cəmiyyəti nümayəndələri ilə müsahibələr və insan alveri qurbanları (bibaşa və potensial) ilə sorğu keçirilmişdir | | | Bakı şəhərində Dərinləşdirilmiş intervyular həm onlayn həm canlı olaraq İyun ayı ərzində keçirilmişdir. |
| İyun 18-19 | Xaşmaz şəhərinə səfər. Aidiyyatı orqanların nümayəndələri və vətəndaş cəmiyyəti nümayəndələri ilə müsahibələr və insan alveri qurbanları (bibaşa və potensial) ilə sorğu keçirilmişdir | | | |
| İyun 25-26 | | Ağcabədi şəhərinə səfər. Aidiyyatı orqanların nümayəndələri və vətəndaş cəmiyyəti nümayəndələri ilə müsahibələr və insan alveri qurbanları (bibaşa və potensial) ilə sorğu keçirilmişdir | | |
| İyul 2-3 | | Gəncə şəhərinə səfər. Aidiyyatı orqanların nümayəndələri və | | |

| | | | | |
|---|---|---|---|---|
| | | vətəndaş cəmiyyəti nümayəndələri ilə müsahibələr və insan alveri qurbanları (bibaşa və potensial) ilə sorğu keçirilmişdir | | |
| İyul 9-10 | | | Yevlax şəhərinə səfər.<br>İnsan alveri qurbanları (bibaşa və potensial) ilə sorğu keçirilmişdir | |
| İyul 16-17 | | | Mingəçevir şəhərinə səfər.<br>Aidiyyatı orqanların nümayəndələri və vətəndaş cəmiyyəti nümayəndələri ilə müsahibələr və insan alveri qurbanları (bibaşa və potensial) ilə sorğu keçirilmişdir | |
| İyul 19-30 | Bakı şəhərinin Xəzər və Sabunçu rayonlarında və digər ərazilərində sorğuların və mütəxəssislərlə onlayn dərinləşdirilmiş müsahibələr, və fokus qrup görüşlər keçirilməşdır. | | | |

# ƏLAVƏ 3

**Dərinləşdirilmiş intervyu nümunəsi**

***İnsan alverinə qarşı mübarizə sahəsində işləyən dövlət qurumları və vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri və ekspertlər arasında keçiriləcək dərinləşdirilmiş müsahibənin strukturu***

1. Hansı sosial qruplar insan alveri üçün risk qrupları hesab etmək mümkündür? Sizcə insan alveri qurbanına çevrilmə ehtimalı daha çox kimlərdədir? İnsan alveri qurbanının orta statistik sosial və psixoloji portreti haqqında hansı məlumatlarınız var?
2. Məcburi əmək, əməyin istismarı və cinsi istismar arasında fərq nədir? Sizcə hansı daha çox baş verir?
3. İnsan alverinə qarşı mübarizədə hansı preventiv tədbirlər daha effektivdir və ölkəmizdə preventiv tədbirlərin vəziyyətini necə qiymətləndirirsiniz?

3.1. Sosial müdaifə sistemində hansı dəyişikliklər etmək lazımdır?
3.2.Ailə institutunun rolunu necə qiymətləndirirsiniz?
3.3.Qanunvericilikdə hansı dəyişikliklərə ehtiyac var?
3.4.Maarifləndirici tədbilər
3.5.İnsan alverinə gətirən ailə zorakılığı, alkoqolizm və digər qanun pozuntusu və asılılıq növləri ilə mübarizənin gücləndirilməsinə ehtiyac varmı?

4. Preventiv xarakterli tədbirlər daha effektivdir yoxsa represiv (cəza, cərimə və s.)?
5. Vətəndaş cəmiyyəti təşkilatlarının insan alverinin qarşısının alınmasında rolunu necə dəyərləndirirsiniz? (real vəziyyət və gələcəkdə bu sahədə görüləcək işlər kontekstində)
6. İnsan alveri qurbanı ilə ilkin görüş zamanı psixoloji vəziyyətinin qiymətləndirilməsi üçün hansı üsul və metodlardan istifadə edilir?
7. İnsan alveri qurbanı olmuş qadınlar və uşaqlar üçün psixoloji reabilitasiya proqramları nəzərdə tutulur?
8. Onlar əsasən insan alveri qurbanına çevrilmələrini hansı amillərlə, səbəblərlə əsaslandırırlar? Onlarla kommunikasiya necə qurulur və hansı halda səmimi ola bilirlər? Hansı məlumatları sizə rahatlıqla və səmimi deyə bilirlər?
9. Sizin regionda insan alveri baş verməməsi üçün hansı profilaktik tədbirlər (sosial-psixoloji proqram, maarifləndirici tədbir, asudə vaxtın təşkili və s.) həyata keçirilir?
10. Sizin regionda cəmiyyətin erkən nikaha, nikahdan kənar övladlara, boşanmış qadının işləməsinə qərəzli baxışla bağlı hansı mübarizə aparılır? Əgər aparılırsa hansı şəkildə?
11. Yaşadığınız regionda insan alveri qurbanı ilə rastlaşdığınız zaman siz və ya digər şəxslər (müxtəlif qurumlar və s.) tərəfindən ilkin olaraq hansı psixoloji dəstək verilib?
12. Əgər yaşadığınız regionda, şəhərdə, məhəllədə insan alveri qurbanı varsa onun psixoloji(psixi) durumunda hansı dəyişiklikləri (davranışında, hərəkətlərində, xarici görünüşündə, səhhətində və s.) müşahidə etmisiniz?
13. Sizin regionda, şəhərdə, məhəllədə kimsəsiz, tərk edilmiş, qayğısız, evsiz uşaqlar, eləcə də uşaq evindən ayrılaraq müstəqil bir həyat qurmağa qərar verən uşaqların şəxsi

inkişafına yönəlmiş hər hansısa sosial və ya psixoloji proqram var? Bu proqramlar keyfiyyəti sizi qane edirmi və daha hansı işlər görülməlidir?

14. Bu sahədə dövlət proqramı və milli qanunvericilik sistemi beynəlxalq standartlara və mexanizmlərə uyğundurmu?
15. Ümumiyyətlə milli qanunvericiliyin insan alveri ilə mübarizə sahəsindəki effektivliyini necə qiymətləndirirsiniz?
16. Qurbanların sığınacağa yerləşdirilməsi proseduru və ya aidiyyatı dövlət qurumları arasında koordinasiya hansı səviyyədədir?
17. COVİD Pandemiya sizin fəaliyyətinizə mane oldumu? Oldusa hansı formada?

**QEYD:** ***Dərinləşdirilmiş müsahibədə qeyd edilən suallardan əlavə müsahibədəki suallara cavablar əsnasında yeni yaranacaq suallar da verilə bilər.***

# Əlavə 4

**İnsan alveri qurbanları ilə anket sorğusu sualları nümunəsi**

**İNSAN ALVERİ QURBANLARI ARASINDA KEÇİRİLƏCƏK ANKET SORĞUSU**

**BİRİNCİ BÖLMƏ: İnsan alveri qurbanının sosial-demoqrafik statusu**

1. İnsan alveri qurbanının statusu a) Cinsi istismar b) Zorla əməyə cəlb edilmə c) köləlik d) regionlarda köləliyə bənzər adətlər e) insan alverinin potensial qurbanları (*avaralıqla və ya dilənçiliklə məşğul olanlar, səfil, əxlaqsız/ yüngül həyat tərzi sürənlər, kimsəsiz, baxımsız, təhsildən qərəzli şəkildə yayınan uşaqlar, alkoqol və içkidən istifadə edənlər, məişət zorakılığının qurbanları, narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığı olan şəxslər*)

**QEYD:** ***1-ci sualın cavabı sorğunu keçirən şəxs tərəfindən doldurulacaq.***

2. Yaş_______
3. Vətəndaşlığı:______
4. Yaşadığı rayon__________________
5. Cinsiyyət: a) qadın b) kişi
6. Təhsili a) natamam orta b) orta c) orta ixtisas d) natamam ali e) ali
7. Hər hansı bir peşə bacarığınız varmı a) Bəli b) xeyr. Varsa qeyd edin______________
8. Daha əvvəllər işləmisinizmi? A) Bəli b) Xeyr . Hansı peşə üzrə işləmisiniz?_________________________________(Cavab a bəndidirsə)
9. İnsan alveri qurbanı olmamışdan əvvəl ailənizin vəya özünüzün aylıq qazancınız nə qədər idi?________________________________________
10. Valideyn himayəsindən məhrum olub uşaq evləri vəya internatlarda yaşamısınız mı? a) Bəli b) Xeyr
11. Ailə vəziyyəti a) evli b) subay c) boşanmış şəxs d) dul
12. Evlilik neçə müddət davam etmişdir. (boşanmış şəxslərə aiddir)__________
13. Ailə üzvlərinizdən (Birinci dərəcəli qohumlardan-ata, ana, qardaş və bacı) kimlər hal hazırda yaşayır?____________________________________________________

**İkinci Bölmə: İnsan alveri qurbanlarının onu əhatə edən sosial çevrəsi ilə münasibətləri**

14. Ailə üzvlərinizlə əvvəllər münasibətiniz necə olub?
   a) Ata

   () Çox yaxşı () Yaxşı () Orta () Pis () Çox pis

   b) Ana

() Çox yaxşı () Yaxşı () Orta () Pis () Çox pis

c) Qardaş

() Çox yaxşı () Yaxşı () Orta () Pis () Çox pis

d) Bacı

() Çox yaxşı () Yaxşı () Orta () Pis () Çox pis

e) Həyat yoldaşı

() Çox yaxşı () Yaxşı () Orta () Pis () Çox pis

f) Digəri______________

() Çox yaxşı () Yaxşı () Orta () Pis () Çox pis

15. Sizin yaşadığınız regionda, şəhərdə, məhəllədə insan alveri qurbanı varsa cəmiyyətdə ona qarşı münasibət necədir?
    a) Mərhəmətli b) Tolerant c) Laqeyd d) Hörmətsiz e) Aqressiv

16. Nikaha daxil olmaqda verilən qərarda aşağıdakı şəxslərin rolu nə dərəcədə əhəmiyyətli olmuşdur (boşanmış şəxslər üçün doldurulacaq)
    a) Özüm

(Çox əhəmiyyətli) (Əhəmiyyətli) (orta əhəmiyyətli) (əhəmiyyətsiz) (çox əhəmiyyətsiz)

b) Atam

Çox əhəmiyyətli) (Əhəmiyyətli) (orta əhəmiyyətli) (əhəmiyyətsiz) (çox əhəmiyyətsiz)

c) Anam
   (Çox əhəmiyyətli) (Əhəmiyyətli) (orta əhəmiyyətli) (əhəmiyyətsiz) (çox əhəmiyyətsiz)

d) Qardaşım

Çox əhəmiyyətli) (Əhəmiyyətli) (orta əhəmiyyətli) (əhəmiyyətsiz) (çox əhəmiyyətsiz)

e) Bacım

Çox əhəmiyyətli) (Əhəmiyyətli) (orta əhəmiyyətli) (əhəmiyyətsiz) (çox əhəmiyyətsiz)

m) Keçmiş həyat yoldaşım_______________________

(Çox əhəmiyyətli) (Əhəmiyyətli) (orta əhəmiyyətli) (əhəmiyyətsiz) (çox əhəmiyyətsiz)

f) Digər şəxslər________________________________

(Çox əhəmiyyətli) (Əhəmiyyətli) (orta əhəmiyyətli) (əhəmiyyətsiz) (çox əhəmiyyətsiz)

17. Nikahda olduğunuz müddət ***(il və ay göstərilməklə, məsələn 1 il 2 ay)***_______________
18. Evli olduğunuz müddətdə həyat yoldaşınızla münasibətdə hansı hallara daha çox rast gəlinib ***(yalnız boşanmış şəxslər üçün soruşulacaq. Bir neçə cavab işarələnə bilər***
    a) Hədələmə b) Döymə c) Dostlarla ilə əlaqə saxlamağa qadağan d) ailə üzvləri ilə əlaqə saxlamağa qadağalar e) İşləməyə qadağalar f) Əldə edilən qazancı əlindən almaq g) Təhsilini davam etdirməyə qadağan h) odlu vəya soyuq silahla bədənə xəsarət yetirmək i) Hisslərini və istəklərini ifadə etməyə qadağalar k) Geyimə qadağalar l) Təhqir etmək m) Evin xərclərini qarşılamaqdan imtina etmək n) aborta məcbur etmək o) qeyri-təbii yolla cinsi əlaqəyə məcbur etmək n) xəyanət p) digər

**ÜÇÜNCÜ BÖLMƏ: İnsan alveri qurbanının “qurbana çevrilmə prosesi və səbəbləri**

19. İnsan alveri qurbanı olmamışdan qabaq sizə edilən təklifi təsvir edin (açıq sualın cavablarına uyğun olaraq daha sonra təhlilçi tərəfindən təsnifatlaşdırılacaq)____________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________

20. Təklifi dəyərləndiərəkən fövqəladə bir maddi borcunuz və ya gələcəyə yönəlik böyük bir öhdəlik (***məsələn övladın və yaxınların müalicəsi üçün küllü miqdarda pul)*** var idi? Təklifi dəyərləndirməyə məcbur edən motivi təsvir edin(Qısa təsviri)____________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________

- Təklifdən öncə siz iş axtarmaq üçün cəhd etmisinizmi? nə dərəcədə uğurlu olmusunuz iş axtarışında?
- Bu təklif sizin üçün digər tapdığınız alternativ iş imkanından nə ilə fərqlənirdi? (maaşın və qazancın daha çox olması, işin ağırlığı və rahatlığına görə, xarici ölkədə olduöuna görə?)

21. Təklif kimlər tərəfindən edilmişdir?
    a) Ailə üzvləri (qohumluq dərəcəsi konkret bildirilməli________) b) dostlarım c) qonşu

    d) Tanımadığım şəxslərin internetdə verdiyi elan e) tanışlarımdan f) Digərləri_________

22. Təklif qiymətləndirilirkən məsləhətləşdiyiniz şəxslər olubmu? A) Bəli b) Xeyr

23. Təklifi qəbul edərkən aşağıdakı şəxslərin məsləhətləri sizin üçün nə dərəcədə təsir olub? (Çox təsirliddən çox təsirsizə kimi 5-1 bal üzərindən qiymətləndiriləcək və hər birinin yanına müvafiq bal qoyulacaq)

a) Ata () b) Ana () c) Qardaş () d) Bacı () e) Həyat yoldaşı () f) Dostlarım () g) Tanışlarım e) Digəri___________ ()

24. Aşağıdakı şəxslərdən hansıları sizə edilən təkliflərə qarşı çıxdı? (bir neçəsini cavablaya bilərsiniz)

a) Ata () b) Ana () c) Qardaş () d) Bacı () e) Həyat yoldaşı () f) Dostlarım () g) Tanışlarım e) Digəri___________ ()

25. 20-ci sualdakı motivdə qeyd edilən problemin həlli üçün hara (dövlət qurumları, sosial şəbəkə, QHT-lər, qaynar xətt və s. yerlər) müraciət etmişdiniz? ____________________________________________________________

26. Müraciət etdiyiniz dövlət orqanları problemin həll edilməsi ilə bağlı neqativ cavabını əsaslandırmaqda aşağıdakı arqumentlər hansı dərəcədə rol oynadı? *(5 bal üzərindən qiymətləndirilərək ən əhamiyyətlisi 5 bal, ən əhamiyyətsizi isə 1 bal üzərindən qiymətləndiriləcək, hər dövlət qurumu ayrı ayrı qiymətləndiriləcək)*
    f) Problemin həllində səlahiyyətlərinin olmaması
    g) Qurumun maddi vəsaitinin yetərli olmaması
    h) Laqeydlik
    i) Kömək üçün prosedurların çox çətin və ağır olması
    j) Vəzifə səlahiyyətlərinin lazımınca yerinə yetirilməməsi
    k) Digəri____________________

27. Təklifi qəbul etməmişdən əvvəl başqa qeyri-dövlət qurumlarından, vətəndaş cəmiyyəti təşkilatlarından, xeyriyyə məqsədli verilişlərdən kömək istədinizmi? A) Bəli b) Xeyr
28. Xeyriyyə məqsədli verilişlərdən və cəmiyyətlərdən kömək istəyəndə onların kömək edə bilməməsinin səbəbləri nələr idi (Qısa təsvir) ____________________________
    ______________________________________________________________
    ______________________________________________________________

**DÖRDÜNCÜ BÖLMƏ: İnsan alverinə qarşı mübarizə haqqında qurbanın idrakı**

29. Sizin yaşadığınız regionda, şəhərdə, məhəllədə əhali insan alveri ilə bağlı nə dərəcədə məlumatlıdır? (5 bal üzərindən qiymətləndirmə)
    a) Çox məlmatlıdır. B) Məlumatlıdır c) Orta dərəcədə d) Az məlumatlıdır. E) Tamamilə məlumatsızdır.
30. Sizin yaşadığınız ərazidə qadın və uşaqlar ailədaxili münasibətlərdə problem səbəbindən ailədən kənara, xaricə və ya digər şəhərə köçməsinə necə baxırlar?
    a) Anlayışlı b) Tolerant (normal) c) laqeyd d) hörmətsiz e) aqressiv

31. Sizcə gələcəkdə belə halların azaldılması üçün aşağıdakı tədbirlər nə dərəcədə effektiv ola bilər? (Əhəmiyyətliliyə görə sıralayın)
   a) Keyfiyyətli təhsil və peşə hazırlığına əlçatımlılıq
   b) İş imkanlarını artırmaq (hansı işlər və hansı şərtlərlə?)
   c) Dövlətin qadın və uşaqlarla bağlı sosial tədbirləri gücləndirmək
   d) Hüquq-mühafizə orqanlarında qadın və uşaqlara qarşı məişət zorakılığı hallarına daha həssas yanaşma
   e) Xeyriyyə təşkilatlarını gücləndirmək
   f) Sosial müdafiə qurumları və vətəndaş cəmiyyəti təşkilatlarının imkanlarını gücləndirmək
   g) Məhkəmə-hüquq sistemində həssas qrupların maraqlarına daha da həssaslıqla yanaşmaq
   h) Dövlət qurumlarının mənim kimi həssas qruplara daha diqqətli davranması
   i) Digəri______________________
   j) İnsan alveri sahəsində maarifləndirici tədbirləri gücləndirmək

32. Sizə görə aşağıdakılardan hansı imkanlar (imkanlarınız) olsaydı insan alverinin qurbanı olmazdınız? (İmkanları əhəmiyyətlilik dərəcəsinə görə sıralayın)
   11. Keyfiyyətli təhsil və peşə hazırlığına əlçatmlılıq
   12. İş imkanlarına əlçatımlılıq
   13. Dövlətin qadın və uşaqlarla bağlı sosial tədbirlərinin güclü olması
   14. Məişət zorakılığına məruz qalmamaq
   15. Nikah məsələsində fikrimin əsas alınması
   16. Ailə tərəfindən mənəvi dəstək və münasibətlərin yaxşı olması
   17. Ailə tərəfindən maddi dəstək
   18. Xeyriyyə təşkilatlarının daha çox olması
   19. Dövlət qurumlarının mənim kimi həssas qruplara daha diqqətli davranması
   20. Digəri______________________

33. İnsan alveri qurbanı olduğunuz yer/məkan.
   a) Xarici ölkə
   b) Şəhər
   c) Region
   d) Digər

# *Əlavə 5*

***Təlimlərin qiymətləndirilməsi anketi***

İnsan Alveri üzrə Milli Fəaliyyət planının 4.8.4-cü bəndinə əsasən İnsan alveri ilə bağlı keçirilən bütün maarifləndirmə tədbirlərinin və təlimlərin nəticələrinin qiymətləndirilməsi məqsədilə anket sorğusunda aşağıdakı suallar verilir:

Sual 1: İnsan alverinə qarşı mübarizədə hansı təlimlər və maarifləndirici tədbirlərdə iştirak etmisiz? Əgər cavab "Hə"-dirsə, öo zaman növbəti cavablara keçin.

Sual 2. Sosial-psixoloji yardımla bağlı hansı təlimlərdə iştirak etmisiniz?

Sual 3. Asudə vaxtının təşkili ilə bağlı tədbirlər keçirilirimi?

Sual 4. Təlimlər zamanı daha hansı yeniliklərdən istifadə etmək olar?

Sual 5. Digər maaarifləndirmə tədbirlərindən yaralanmısınızmı?

Sual 6. Qanunverilikdə maariflənmə və əhalinin bilik səviyyəsinin artırılması ilə bağlı hansı təklifin var?

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80, Hökumət Evi, IV Qapı
Tel: (+994 12) 498 00 92
Faks: (+994 12) 493 58 72
E-mail: office@scfwca.gov.az

https://twitter.com/AileQadinUsaq

https://www.instagram.com/aileqadinusaq/

https://www.facebook.com/AileQadinUsaqProblemleriUzreDovletKomitesi/

https://www.youtube.com/channel/UCda2OFUuU6FOpxer0IcjvfQ

Analitik hesabat Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyi tərəfindən hazırlanmışdır.